AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

# “Milli iqtisadiyyatın inkişafında hüquqi tənzimləmənin rolu: Problemlər və həlli yolları” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədov Fərid Hikmət**

**BAKI - 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d.,dos. Əhmədov Fariz Saleh oğlu**

**_______________________imza**

**«______» ____________2020-ci il**

**«Milli iqtisadiyyatın inkişafında hüquqi tənzimləmənin rolu: Problemlər və həlli yolları» mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060404 -** İqtisadiyyat

**İxtisaslaşma:** İqtisadi nəzəriyyə

**Qrup:** 12

**Magistrant**
**Məmmədov Fərid Hikmət**

**________________imza**

**Elmi rəhbəri**
**h.ü.f.d., dos.Zeynalov Mikayıl Gəray**

**________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d, dos. Hümbətova Suqra İnqilab**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d.,prof. Kəlbiyev Yaşar Atakişi**

**____________________imza**

**BAKI – 2020**

**Elm andı**

Mən, Məmmədov Fərid Hikmət oğlu and içirəm ki, “Milli iqtisadiyyatın inkişafında hüquqi tənzimləmənin rolu: Problemlər və həlli yolları” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ**.................................................................................... | 4 |
| I FƏSIL | **MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**........................................................ | 8 |
| 1.1. | Bazar iqtisadi sisteminin hüquqi tənzimlənməsinə dair nəzəri baxışlar.......................................................................................... | 8 |
| 1.2. | İqtisadi inkişafın dövlət tənzimlənməsinin metodoloji cəhətləri........................................................................................ | 14 |
| 1.3. | İqtisadi inkişafın tənzimlənməsinin hüquqi əsaslarının fomalaşması prosesi................................................................................ | 22 |
| IIFƏSIL | **MÜASİR DÖVRDƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ**....................... | 28 |
| 2.1. | İqtisadiyyatın tənzimlənməsi üzrə dövlətin fiskal siyasətin reallaşdırılmasının hüquqi əsasları................................................... | 28 |
| 2.2. | Dövlətin monetar siyasəti və onun hüquqi tənzimlənməsi məsələləri...................................................................................... | 38 |
| 2.3. | Milli iqtisadiyyatın hüquqi tənzimləmə mexanizminin səmərəli fəaliyyətinin təşilinin mövcud durumu............................................... | 49 |
| IIIFƏSIL | **MİLLİ İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ**.............................. | 60 |
| 3.1. | İqtisadi inkişafın tənzimlənməsinin hüquqi bazasının inkişaf etdirilməsi istiqamətləri................................................................ | 60 |
| 3.2. | Milli iqtisadiyyatın hüquqi tənzimləmə mexanizminin fəaliyyətinin yüksəldilməsi yolları.................................................................. | 71 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR**............................................................ | 75 |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**................................................ | 78 |
| | Cədvəllərin siyahısı.......................................................................... | 80 |
| | Qrafiklərin siyahısı.......................................................................... | 80 |
| | Sxemlərin siyahısı............................................................................ | 80 |

# MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA HÜQUQİ TƏNZİMLƏMƏNİN ROLU: PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI


## XÜLASƏ

**Tədqiqatın aktuallığı iqtisadiyyatın inkişafının mükəmməl hüquqi baza əsasında tənzimlənməsi problemin araşdırmasının yekun nəticələri elmi-tədqiqat fəaliyyəti aparan müəssisələr, magistrant və aspirantlar tərəfindən, iqtisadi idarəetmə funksiyalarını yerinə yetirən qurumlar tərəfindənnə istifadə edilə bilər. Bu baxımdan da təqdim edilmiş magistr dissertasiyanın mövzusu böyük elmi-praktiki aktuallığa malikdir.**

**Tədqiqatın məqsəd və vəzifələri: milli iqtisadiyyatın tənzimlənməsində səmərəli işləyəcək hüquqi bazanın formalaşması və daimi olaraq sürətlə dəyişməkdə olan iqtisadi şəraitdə daha da təkmilləşdirilməsi yollarının tədqiq edilməsi.**

**Vəzifələr: dövlətin hüquqyaratma fəaliyyətinin istiqamətlərinin müəyyənləşməsi, iqtisadiyyatın tənzimləməsi üzrə tədbirlər sisteminin araşdırılması, iqtisadi inkişafın hüquqi tənzimləmə mexanizminin imkanlarının genişləndirilməsi məsələlərini öyrənmək, iqtisadi tənzimlənmənin hüquqi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi.**

**İstifadə olunmuş tədqiqat metodları: ilkin informasiyanın təhlili, qruplaşdırma, normativ, indeksləşmə, strukturlaşdırma, ekspert, ekstropolyasiya mtodları, eyni zamanda, imperativ və dispozitiv xarakterli metodlar.**

**Tədqiqatın informasiya bazası Tədqiqatın qimətli və keyfiyyətli olması üçüm zəngin və geniş informasıya mənbələrindən istifadə edilmişdir. Beləki, tədqiqatın işlənməsində informasiya bazası kimi Azərbaycan Respublikası Milli Məclısinin, Prezidentinin, Nazirlər Kabinetinin, həmçinin müvafiq dövlət orqanlarının rəsmi internet saytlarından və rəsmi dövlət nəşrlərindən, həmçinin nüfuzlu alimlərin tədqiqatlarının nəticələrindən istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Dissertasiyanın mövzusunun nisbətən yeni olması, metodoloji materialların az olması tədqiqatın metodologiyasının tərtibində müəyyən çətinliklər yaratsa da qanunvericilik aktlarından istifadə etməklə düzgün metodoloji əsas formalaşdırıldı.**

**Tədqiqatın nəticələri: Aparılan araşdırmalar milli iqtisadiyyatın, onun ayrı-ayrı sahə və bölmələrinin hüquqi tənzimlənməsi sahəsində problemləri üzə çıxarmış və elmi araşdırılma yolu ilə onların həlli istiqamətlərini müəyyənləşdirmişdir.**

**Nəticələrin elmi-praktiki əhəmiyyəti: aparılan elmi araşdırmaların sonunda məntiqi yekun kimi, bir sıra obyektiv nəticələr əldə olunmuş və onlara müvafiq olaraq praktiki əhəmiyyət kəsb edən təkliflər verilmişdir. Həmçinin təkliflərdən elmi-tədqiqat işlərində, həmçinin müvafiq dövlər qurumları tərəfindən milli iqtisadiyyatın tənzimlənməsi prosesində istifadə ölkə iqtisadiyyatına müəyyən dividentlər verə bilər.**



**Açar sözlər: milli iqtisadiyyat, dövlət tənzimlənməsi, hüquqi baza, normativ-hüquqi akt, qanunlar**

# THE ROLE OF LEGAL REGULATION IN THE DEVELOPMENT OF THE NATIONAL ECONOMY: PROBLEMS AND SOLUTIONS


## SUMMARY

**Relevance of the research: Regulation of economic development on the basis of a perfect legal framework The final results of the research can be used by research institutions, undergraduates and graduate students, as well as institutions performing economic management functions. From this point of view, the topic of the presented master's dissertation has great scientific and practical relevance.**

**Aims and objectives of the research: to study the formation of a legal framework that will work effectively in the regulation of the national economy and ways to further improve it in a constantly changing economic environment.**

**Objectives: to determine the directions of state legislative activity, to study the system of measures to regulate the economy, to study the issues of expanding the opportunities of the legal regulation mechanism of economic development, to determine the directions of improving the legal mechanism of economic regulation.**

**Research methods used: analysis of primary information, grouping, normative, indexing, structuring, expert, extrapolation methods, as well as imperative and dispositive methods.**

**Research Database Rich and extensive sources of information have been used to make the research valuable and high quality. Thus, the official websites and official state publications of the Milli Majlis, the President, the Cabinet of Ministers of the Republic of Azerbaijan, as well as the relevant state bodies, as well as the results of research by influential scientists were used as an information base in the research.**

**Limitations of the research: Although the topic of the dissertation is relatively new, the lack of methodological materials creates certain difficulties in the development of the research methodology, the correct methodological basis was formed using legislative acts.**

**Results of the research: The researches revealed the problems in the field of legal regulation of the national economy, its separate branches and divisions and determined the directions of their solution through scientific research.**

**Scientific and practical significance of the results: at the end of the scientific researches, as a logical conclusion, a number of objective results were obtained and suggestions of practical significance were given accordingly. Also, the use of proposals in research, as well as in the process of regulating the national economy by relevant government agencies can bring certain dividends to the country's economy.**



**Keywords: national economy, state regulation, legal framework, normative-legal act, laws**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **Az.Resp.** | Azərbaycan Respublikası |
| **ARQ** | Azərbaycan Respublikası Qanunu |
| **SYX** | Strateji Yol Xəritəsi |

## GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir bazar münasibətləri şəraitində hər bir dövlətin qarşısında duran mühüm vəzifə milli iqtisadiyyatın davamlı və dinamik inkişafını səmərəli işləyən mükəmməl hüquqi mexanizm vasitəsi ilə tənzimləməkdən ibarətdir. Ölkə iqtisadiyyatının səmərəli inkişafı məhz dövlət tərəfindən formalaşdırılan belə mexanizm vasitəsilə mümkün sayılır. Səmərəli işləyən hüquqi tənzimləmə mexanizmi iqtisadi inkişafda kəmiyyət dəyişiklikləri ilə yanaşı keyfiyyət göstəricilərinin də yüksəlməsində başlıca amil olmuşdur.

Milli iqtisadiyyatımızın davamlı və dinamik inkişafının səmərəli işləyən mükəmməl hüquqi baza əsasında tənzimlənməsi kimi mühüm bir problemin araşdırmaının yekun nəticələri həm milli iqtisadiyyatın tənzimlənməsi sahəsində elmi-tədqiqat fəaliyyəti aparan elmi müəssisələr, fərdi elmi araşdırmalar aparan magistrant, aspirant və dissertantlar tərəfindən, həm də bilavasitə iqtisadi idarəetmə funksiyalarını yerinə yetirən orqanlar və qurumlar tərəfindənnə əsas kimi istifadə edilə bilər. Bu baxımdan da təqdim edilmiş magistr dissertasiya işinin mövzusu hazırda böyük elmi-praktiki aktuallığa malikdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Hazırda milli iqtisadiyyatin inkişafinının tənzimlənməsinin səmərəli şəkildə və bazar qanunlarına uyğun həyata keçirilməsini onun hüquqi aspektləri nəzərə alınmadan təsəvvür etmək, praktiki olaraq, qeyri-mümkün sayılır. Bu, ilk növbədə, milli iqtisadiyyatın tənzimlənməsi sahəsində dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin və onun bütün istiqamətlərinin elmi əsaslandırılmış şəkildə işlənib hazırlanmışı və sistemlı mükəmməl hüquqi mexanizmin tətbiqi əsasında mümkündür.

Mahiyyət etibarı ilə, milli iqtisadiyyatın inkişaf tələblərini nəzərə almaqla işlənib hazırlanmış milli qanunvericilik iqtisadiyyatın hüquqi tənzimlənməsi istiqamətində dövlətin hüquqyaratma sahəsinə məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsi sayıla bilər və burada dövlətin qarşısında duran başlıca vəzifə həmin hüquqi bazadan məqsədyönlü istifadə etməklə iqtisadi proseslərin səmərəli tənzimlənməsini həyata keçirməkdir. Burada əsas məqam ondan ibarətdir ki,

mövcud hüquqi bazada əks olunan hüquq normalarının məntiqi sistemləşdirilməsi yolu ilə milli iqtisadiyyatın tənzimlənməsinin səmərəli işləyən hüquqi mexanizmi formalaşdırılmış olsun.

Qeyd etmək lazımdır ki, son illərdə iqtisadiyyatin hüquqi tənzimlənməsinin mürəkkəb və çoxşaxəli problemləri bir sıra dünya və ölkə alimləri tərəfindən geniş surətdə araşdırılmışdır. Lakin, bu sahədə bir çox elmi nailiyyətlərin əldə olunmasına baxmayaraq, hələ də onun nisbətən az bir müddət ərzində tədqiqinə başlanması və, ən əsası da, problemin olduqca mürəkkəb və geniş aspektli olması səbəbindən burada aparılan tədqiqatlar yalnız məsələnin qismən həlli ilə nəticələnmişdir. Təqdim olunan dissertasiya işində milli iqtisadiyyatın hüquqi tənzimləmə probleminin kompleks həllinə cəhd olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi milli iqtisadiyyatın formalaşdırılması və dinamik inkişafı prosesində səmərəli işləyəcək hüquqi bazanın formalaşması və daimi olaraq sürətlə dəyişməkdə olan iqtisadi şəraitə uyğun olaraq onun mütəmadi şəkildə daha da təkmilləşdirilməsi istiqamətlərinin və yollarının ətraflı tədqiq edilməsindən ibarətdir. Eyni zamanda, Azərbaycanda milli iqtisadiyyatın inkişaf etdirilməsi prosesində dövlətin bu hüquqi bazadan istifadə imkanlarından və hüquqi vasitələrin tənzimləmədə tətbiqi üzrə fəaliyyətini ətraflı elmi araşdırmaq da məqsəd kimi qarşıya qoyulmuşdur.

Qarşıda qoyulan məqsədə nail olmaqdan üçün tədqiqatın qarşısında bir sıra aşağıdakı mühüm vəzifələrin həlli nəzərdə tutur:

1. Milli iqtisadiyyatın formalaşması və inkişafı prosesində dövlətin hüquqyaratma fəaliyyətinin əsas istiqamətlərinin dəqiq müəyyənləşdirilməsi.

2. Milli iqtisadiyyatın formalaşması və inkişafı prosesində dövlətin hüquqi tənzimləmə sahəsində həyata keçirdiyi tədbirlər sisteminin əsaslı şəkildə araşdırılması.

3. Artıq formalaşdırılmış və fəaliyyətdə olan hüquqi bazanın durumunun müəyyən olunması və bu sahədə olan problemlərin tədqiqi.

4. Milli iqtisadiyyatm inkişafına istiqamətləndirilmiş hüquqi tənzimləmə mexanizminin imkanlarının genişləndirilməsi məsələlərin həllinin öyrənilməsi.

5. Müasir dünya təcrübəsi nəzərə alınmaqla milli iqtisadiyyatın inkişafının hüquqi bazasının və hüquqi tənzimləmə mexanizminin genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətlərinin elmi əsaslarla müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Milli iqtisadiyyatın inkişafında başlıca zəmin olan hüquqi bazanın formalaşdırılması istiqamətində dövlət tərəfindən aparılan hüquqyaratma təcrübəsi və iqtisadiyyatın hüquqi tənzimlənmə prosesində yaranan münasibətlər sistemi sayılır.

Tədqiqat işinin predmetinı ölkədə davamlı iqtisadi inkişafa nail olmaq üçün iqtisadi inkişafın sürətləndirilməsi istiqamətində mövcud hüquqi mexanizmin formalaşdırılması, tətbiqi və mütəmadi olaraq onun fəaliyyətinin təkmilləşdirilməsi prosesləri və bu sahədə potensial imkanların araşdırılması təşkil edir.

**Tədqiqat metodları**: Tədqiqatın gedişində milli iqtisadiyyatın hüquqi tənzimləmə elmində tətbiq olunan çox sayda metodlar, üsul və qaydalar əsas götürülmüşdür. Bu metodlara aiddir: ilkin informasiyanın alınması və təhlili metodu, qruplaşdırma metodu, normativ metod, indeksləşmə metodu; strukturlaşdırma metodu, ekspert metodu, ekstropolyasiya mtodu və s. aiddir. Eyni zamanda, tədqiqatda iqtisadiyyatın hüquqi tənzimləmə metodları sayılan imperativ və dispozitiv xarakterli metodlardan geniş istifadə edilib.

Həmçinin, dissertasiya işinin yazılması prosesində dövlət tərəfindən qəbul edilmiş və qüvvədə olan müvafiq qanunvericilik aktlar da diqqət mərkəzində olmuşdur. Bura Azərbaycan Respublikasının məcəllələri, qanunları, Azərbaycan Respublikası Prezidenti, Nazirlər Kabineti, Milli Məclisi, nazirlik və komitələrinin normativ-hüquqi aktları, elmi tədqiqat müəssisələrinin hesabatları və sənədləri, alimlərinin fikirləri və tədqiqatları metodoloji əsas kimi qəbul edilb.

Ümumiyyətlə, milli iqtisadiyyatın inkişafı və səmərəli fəaliyyətinin praktiki məsələlərinin həlli bir sıra metodoloji məsələlərin, ilk növbədə zəruri hüquqi bazanın formalaşdırılması və onun daim təkmilləşdirilməsi təcrübəsinə əsaslanmalıdır

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın qimətli və keyfiyyətli olması üçüm zəngin və geniş informasıya mənbələrindən istifadə edilmişdir. Beləki,

tədqiqatın işlənməsində informasiya bazası kimi Azərbaycan Respublikası Milli Məclısinin, Prezidentinin, Nazirlər Kabinetinin, müvafiq dövlət orqanlarının rəsmi internet saytlarından və rəsmi dövlət nəşrlərindən, həmçinin nüfuzlu alimlərin tədqiqatlarının nəticələrindən istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Dissertasiya işinin mövzusunun nisbətən yeni olması, bu sahədə metodoloji materialların az olması ilə əlaqədar tədqiqatın dəqiq və səmərəli işləyən metodologiyasının tərtibində müəyyən çətinliklər yaransa da onun spesifik xarakterini nəzərə almaqla Azərbaycan qanunvericilik aktlarından istifadə etməklə düzgün metodoloji əsas formalaşdırıldı. Beləliklə, bu sahədə məhdudiyyətlər problemin həllində xüsusi yanaşma tələb edilməsi, tədqiqatın aparılması üçün mane olan nəzəri-metodoloji çatışmazlıq sayıla bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Disertasiya işinin mövzusu üzrə aparılan elmi araşdırmaların sonunda məntiqi yekun kimi, bir sıra obyektiv nəticələr əldə olunmuş və onlara müvafiq olaraq praktiki əhəmiyyət kəsb edən təkliflər verilmişdir. Bu təkliflər geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Azərbaycanda keçirilən magistrant və tələbə elmi konfranslarında nəticə təkliflərin tezisləri məruzə edilmişdir. Həmçinin müvafiq dövlər qurumları tərəfindən milli iqtisadiyyatın tənzimlənməsi prosesində verilən təkliflərdən istifadə ölkə iqtisadiyyatına müəyyən dividentlər verə bilər.

# I FƏSİL. MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Bazar iqtisadi sisteminin hüquqi tənzimlənməsinə dair nəzəri baxışlar

Müasir dövrdəhər bir dövlət öz milli iqtisadiyyatının dinamik inkişafının və səmərəli fəaliyyətinin təmin edilməsində başlıca qüvvə hesab edilir. Bu baxımdan da hazırda dövlətin iqtisadiyyata səmərəli müdaxiləsi üzrə düzgün qərarların qəbul edilməsi, hüquqi tənzimlənmə adlanan bir prosesin reallaşdırılmasını ən aktual bir problemə çevirmişdir.

XX əsrin 2-ci yarısı dövlətlərin iqtisadiyyata münasibətdə hüquqi tənzimləmə funksiyalarını daha aktiv icra etməsinin geniş vüsət aldığı bir dövrü xarakterizə edir. Bu, ilk növbədə iqtisadiyyatın tənzimlənməsinə münasibətdə müvafiq qırımlar tərəfindən iqtisadiyyata dövlət müdaxiləsinin normalarını, qaydalarını və üsullarını müəyyənləşdirən normativ-hüquqi aktlar qəbulunda, cəmiyyətin bütün üzvləri tərəfindən, ilk öncə dövlət tərəfindən onların icrasına nəzarətin aparılmasında təcəssüm olunur.

Dövlətin iqtisadiyyata hüquqi metodlarla müdaxiləsi 1930-cu illərdən başlayaraq bütüb qabaqcıl dövlətlər tərəfindən geniş tətbiq edilməklə artıq ən səmərəli tənzimləmə forması statusu aldı. Təsadüfi deyil ki, həmin illər iqtisadiyyatın tənzimlənməsinə dövlətin müdaxilə hədləri ilə bağli yeni bir elmi yanaşma «Keynsçilk» nəzəriyyəsi irəli sürüldü. İqtisadiyyata dövlətin müdaxiləsi baxımından bu nəzəriyyənin əsasə mövqeyi ondan ibarət idi ki, bazar iqtisadiyyatında dövlətiniqtisadiyyatə aktiv şəkildə, lakin məhdud həddə tənzimlənməsi obyektiv bir zərurətdir. Əks təqdirdə bazar tənzimləmə mexanizmi iqtisadiyyatı ideal tənzimləmə iqtidarında olmadığından vaxtaşırı olaraq cəmiyyətdə iqtisadi proseslərdə neqativ durumların baş verməsi qaçılmazdır.

Amerikan iqtisadşısı C.Keynsin özünün «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» tədqiqatında elmi cəhətdən sübut etdi ki, iqtisadiyyatın

dağıdıcı böhranlardan xilas edilməsinin əsas yolu ölkədə dövlətin məcmu tələbi düzgün tənzimlənməsindən asılıdır. C.Keyns bu fikirdə idi ki, ölkədə iqtisadi inkişaf ıəsaslı şəkildə dövlətin məcmu tələbi formalaşdırmaq və buna da milli gəlirim artımına təsir edən faktorlardan istifadə etməklə nail olmaq olar. Bu məqsədlə dövlətin aktiv şəkildə məşğulluq, investisiya siyasətlərini həyata keçirməlidir.C.Keynsin təklif etdiyi elmi-nəzəri baxışa əsasən dövlət ölkə iqtisadiyyatına əsasən yaranmış böhranı aradan qaldırmaq üçün təsir göstərməlidir. Bunun üşün isə ilk növbədə iqtisadiyyata böyük həcmdə investisiyalar cəlb edilməli, əhalinin məşğulluq səviyyəsini yüksəltməklə onun alıcılıq qabliyyəti artırılmalıdır.

Keynsin bu nəzəriyyəsinin məntiqi yekunu isə dövlətin düşünüşmüş fiskal (büdcə-vergi) siyasətini həyata keçirməsinin həlledici olmasıdır. Belə bir sistemi iqtisadi ədəbiyyatda «Keyns modeli» də adlandırılır. Beləki, I dünya böhranı dövründə bir çox ölkələri cənginə almış böhran vəziyyətindən qurtarmaq məqsədilə hər bir dövlətin başlıca vəzivəsi iqtisadiyyatı aktiv tənzimləmə funksiyasını bacarıqla yerinə yetirmək olmuşdur.

20-ci yüzilliyin sonlarından iqtisadiyyatda dövlətin təsir imkanlarının genişləndirilməsi baxımından yeni bir cərəyan – «monetarist» iqtisadi fikri formalaşdı. «Monetarist» nəzəriyyə vacib bir təsirə malikdir və hazırda iqtisadiyyatın dövlət tənzimlənməsinə baxışlarında ciddi mövqe tuturr. Monetarist ideyalarının banisi amerkan alimi M.Fridmen hesab olununr. Xarakter etibarı ilə «Monetarist» iqtisadi fikiri C.Keynsin iqtisadi baxışı ilə tərs bir mövqe tutur. «Monetarist» nəzəriyyənin belə hesab edirlər ki, iqtisadi inkişafın aparıcı qüvvəsi azad sahibkarlıq hesab edilməlidir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin yeni nəzəriyyə yaradıcılarınan Hollandiya iqtisadç-alimi Y.Tinbergeni göstərmək olar. Y.Tinbergen belə hesab edir ki, reallıqda tənzimləmə sahəsində dövlətin çatmalı olduğu məqsədlərlə onun sərəncamına verilən olan vasitələr arasında uyğumluq olmalıdır.

Bütün bunlar göstərir ki, iqtisadi proseslərə dövlət müdaxiləsinin mövcud olması zəruridir. Bu sahədə amillər kompleksinin sistemlı formada nəzərə

alınmasının vacibliyi aşağıda göstərilən sxemdə əks olunub (Sxem 1).

**Sxem 1:İqtisadiyyatın dövlət tənzimlənməsini şərtləndirən amillər**

| Amillər qrupu | Amillərin tərkibi |
|---|---|
| Bazar mexanizminə mənfi təsir göstərən amilləri aradan qaldırılması üzrə tətbiq edilən amillər. | 1. Bazar proseslərindəki hərc-mərcliyin məhdudlaşdırması.<br>2. Məcmu tələbin yüksəldilməsi.<br>3. Normal rəqabət şəraitinin yaradılması.<br>4. Beynəlxalq bazarda rəqabətqabliyyətliliyin təmin edilməsi və yüksəldilməsi. |
| İqtisadi stabillik və geniş təkrar istehsalı prosesini təmin edən amillər. | 1. İqtisadi subyektlərə ədalətli davranış qaydalarını müəyyən etmək.<br>2. İqtisadiyyatın harmunik inkişafını təmin etmək.<br>3. Davamlı və dinamik iqtisadi artım və işgüzar fəallığa əlverişlı stimullar yaratmaq.<br>4. Makroiqtisadi sabitliyi və tarazlı şəraiti yaratmaq.<br>5. Dövlət bölməsində uğurlu tənzimləmə işinin təşkil edilməsi.<br>6. Xüsusi bölmənin kapitalı rickli sahələr üzrə dövlət investisiyalarına tələbin ödənilməsi.<br>7. Elmi inkişafa və ETT proseslərinə zəruri dəstəyin olunması. |
| Sosial problemləri aradan qaldırmaq üzrə tətbiq edilən metodlar. | 1. Gəlirlərin ədalətli bölgüsünün aparılmasının təmin edilməsi.<br>2. Sosial stabilliyin iqtisadi əsaslarının təmin olunması və sosial-iqtisadi gərginliklərin ləğv olunması.<br>3. Əhalinin tam məşğulluq səviyyəsinə nqil olunması.<br>4. İşçi qüvvəsinin geniş təkrar istehsalı üçün əlverişli şəraitin yaradılması və insanların intellektual bacarıqlarının daha da inkişaf etdirilməsinə geniş imkanlar yaradılması (səhiyyənin, elmin, təhsilin, idmanın və s. inkişaf etdirilməsi) |

**Mənbə:** Müəllif tərəfindən ümumiləşdirilmişdir

Sxemdən göründüyü kimi, iqtisadiproseslərə dövlət müdaxiləsi üzrə amillər çox genişlənmiş bir spektr üzrə sistemləşdirilmişdir. Bu amillər bu cür geniş əhatəli sistem üzrə müəyyənləşməsi iqtisadiyyatın dövlət tənzimlənməsi mürəkkəb bir proses sayılır və bu səbəbdən onun obyekti də geniş əhatəyə malikdir. Beləki, iqtisadi sistemdə dövlət müdaxiləsinə zərurət duyulan sahələ, sferala, bölmə və həmçinin həlli tələb olunan problemlər çoxşaxəli bir sistem təşkil edir.

Beləliklə 2 nəzəri məktəbi - «Keynsçilik» və «Monetarizm» nəzəriyyələri araşdırılmaqla belə nəticəyə gəlmək olar ki, zaman etibarı ilə keynsçilik ideyaları qısamüddətli, monetarizm nüddəaları isə nisbətən uzun bir müddətə nəzərdə tutlan iqtisadi ideyalar məktəbidirlər.

Hazırda müasir dövrün iqtisadiyyatın hüquqi tənzimlənməsinə münasibətdə

geniş yayılan nəzəriyyələrdən biri də «İnstitutsionalist» cərəyanının ideyaları sayılır. «İnstitutsionalist» ideyası yaradıcılarından məşhur iqtisadç alimlərdən T.Veblen, U.Mitçell və C.Kommonsu qeyd etmək olar. «İnstitutsionalizm» məktəbinin təqdim etdiyi metodologiya təsviri-statistik metodun geniş istifadəsinə, tarixi-genetik metod və xüsusi əsas kimi institut kateqoriyasına (hüquqi normalar, adətlər, vərdişlərin məcmusu) əsaslanmışdır. C.Kommons əsas diqqəti iqtisadiyyatın inkişafını müəyyən edən hüquqi institutların yerinə yetirdiyi fikri müdafiə edir, iqtisadi böhranlarla mübarizə metodlarının işlənilməsi müddəası isə U.Mitçell tərəfindən irəli sürülürdü.

İqtisadiyyatın hüquqi tənzimlənməsinə münasibətdə mühüm istiqamət kimi «Neoinstitutsionalist» məktəbinin xüsusi yerı vardır. Neoinstitutsionalist ideyalarını ilk olaraq irəli sürənlərdən R.Pozneri qyd etmək olar. R.Pozner hesab edirdi ki, hüququ prinsiplərin başlıca məqsədini cəmiyyətdə mövcüd ehtiyatların düzgün və ədalətli bölgüsü təşkil edir. Beləliklə, R.Poznerin araşdırmalarının nəticəsi olaraq ümumhüquq üzrə nəzəriyyəsinin yüksək səmərəlik əldə etməyin yeganə vasitəsi olmasının qəbul edilməsidir.

Hazırda neoinstitusionalist nəzəriyyənin inkişafı istiqamətində bir şox yeni müddəalar işlənib hazırlanmışdır və geniş şəkildə təbliğ olunmaqdadır. Belə istiqamətlərdən «İctimai seçim» (Publics Choice Theoryu) nəzəriyyəsi xüsusi diqqət cəlb edir. Həmin məktəbin yaradıcısı məşhur tədqiqatçı müəllifi C.Byükenen olmuşdur. «İctimai seçim» nəzəriyyəsinə əsaslanmaqla ictimai proseslər daxilində baş verən siyasi sferada baş verən hadisələrlə və iqtisadiyyatda baş verən hadisələr arasında müəyyən asılılığın mövcudluğu və onların araşdırılmasında yaranan fikirlərin anoloji məzmuna malik olması, həmçinin, siyasi hadisələrin iqtisadi metodlar vasitəsi ilə tədqiq edilməsinin mümkünlüyü qəbul edilir.

İqtisadiyyatın instutsional əsasda tənzimlənməsi barədə ilk nəzəri müddəaları üzrə ayrı-ayrı məqamlar Çikaqonun və Avstriyanın «İnstitutsionalizm» və «Neoinstitutsionalizm» nəzəri cərəyanlarının təqdim etdikləri elmi yanaşmalar şəklində irəli sürülmüşdür.

Dünya iqtisadi-hüquqi elmində iqtisadiyyatın tənzimlənməsinə instutsional mövqeyi ilə tanınan Çikaqo məktəbi «Səmərəli seçim» nəzəriyyəsinin yaradılması ilə tanımır. «Səmərəli seçim» nəzəriyyəsinin mövqeyinə görə tətbiq ediləcək metodlar, nəticələr və onlardan istifadə ilə bağlı imkanlar barədə R.Poznerin tədqiqatlarında geniş əsaslanmalara yer verilmişdir.

Ümumiyyətlə, dünya ədəbiyyatında «Səmərəli seçim» nəzəriyyəsində əsaslanmalar «Kouz teoremi»ndə ətraflı əks olunmuşdur. Beləki, «Kouz teoremi»ndə belə hakim müddəa mövcuddur ki, mülkiyyət hüququ tamamilə müəyyən edilərsə və transaksiya xərclərinin sıfır olduu halda iqtisadi proseslərdə iştirak edən münaqişə tərəflərinin hüquqlarının ilkin bölgüsünün durumundan asılı olmayaraq, səmərəli nəticə üzrə razılığa gəlinə bilinər.

Avstriyanın «Neoinstitutsionalist» nəzəriyyəsi bir sıra ilkin şərtləri rəhbər tutmaqla «Nneoklassik» məktəbinin fikirləri ilə tutuşdurmalara əsaslanıb.

Təhlil göstərir ki, Avstriya məktəbi təlimləri üzrə yanaşmanı tam dərk etmək ilk növbədə klassik və mülkiyyət hüquq nəzəriyyələrinə söykənən yanaşmaların əsaslarını müəyyənləşdirmək zəruridir. Beləki, «transaksiya xərclərinin» müsbət qiymətləndirildiyi zaman alınan yekun nəticə mülkiyyət hüququnun başlanğıc bölgüsü vəziyyətindən asılıdır. Bu səbəbdən də mülkiyyət hüququnun bölgü problemi müsbət «transaksiya xərcləri» vasitəsi ilə faydalılıq əldə edilməsi işində fövqəladə əhəmiyyət daçıyır.

«İctimai seçim» nəzəriyyəsinin tətbiqində fəaliyyətdə olan institutlar şəxslərin fərdi maraqını necə reallaşdırmaq imkanı əldə etməsi baxımından araşdırılmalıdırlar. C.Byükenenin belə bir fikiri mövcuddur ki, dövlət ilkin qaydada ictimai razılıqlar əldə olunması probleminin həlli, hər bir fərdə faydalı sayılan qanunların və üsulların tərtibi obyekti sayılmalıdır. Bunla da C.Byükenenin «İctimai seçim» nəzəriyyəsi başlıca olaraq dövlətə hüquqyaratma baxımından dəyər verir.

«İnstitutsionalist» nəzəri məktəbinin son nümayəndələrindən biri kimi də məşhur Amerika iqtisadçı-alimi R.Kouzu xüsusi qeyd etmək lazımdır. R.Kouz, iqtisadi tənzimləmə sahəsində nəzəri baxışlarada «transaksiya xərcləri» ideyasının

irəli sürülməsində böyük rol oynamışdır. O belə hesab edirdi ki, iqtisadi subyektlər arasında bağlanan müqavilələrdə transaksiyon xərcləri nəzərə alınmaması halında ya fiziki şəxslərin qanunlara ehtiyaclarının olmaması və yaxud da onlar tərəfindən buna ehtiyac yoxdur. R.Kouz tərəfindən irəli sürülən müddəanın 3 əsası ola bilər: birincisi, qanunun belə hallarda heç bir təsir göstərmək imkanı yoxdur; ikincisi, o hər-hansı təsir imkanına malikdir, amma, başqa institutlar onu əvəzləmək iqtidarındadır; üçüncüsü, qanunun problemin həllində əsas rol oynamaq imkanı var. Amma, qüvvədə olan hüquq qaydaları daxilində biznes fəaliyyəti faydalı şəkildə genişlənə bilmədiyi halda iqtisadi subyektlər öz aralarında daha əlverişli razılaşmalar bağlamalı olurlar.

R.Kouz belə hesab edirdi li, iqtisadi proseslərdə hüquq sisteminin tətbiqi zərurəti transaksiya xərclərinin sıfıra bərabər olmaması ilə şərtlənir. Firma və müəssisələrin transaksiya xərclərinin müsbət forma durumuna keçərsə, bu o deməkdir ki, artıq hüquqi sistem fəaliyyətə başlamış olur.

İqtisadi fəaliyyət sahəsini araşdırmaqla R.Kouz öz təlimində belə bir müddəanı irəli sürür ki, bir qayda olaraq transaksiya xərcləri azaldılarsa, ona uyğun olaraq iqtisadi fəaliyyətdə faydalılığım yüksəlməsinin əsas səbəbi bu proseslərə aktiv şəkildə hüquq normaları tətbiq olunur. R.Kouz göstərirdi ki, mahiyyət etibarı ilə hüquq normaları ilə transaksiya xərclərinin möhkəm əlaqələri mövcuddur.

Beləliklə, «İnstitutsionalist» nəzəriyyəsinə əsasən iqtisadi fəaliyyətin səmərəli həyata keçirilməsi mütləq balanslaşdırılmış transaksiya xərclərinin mövcudluğu şəraitində mümkündür.

Nəzəri baxımdan aparılan bütün elmi araşdırmaları nəzərdən keçirməklə qeyd etmək lazımdır ki, iqtisadi proseslərin dövlət tərəfindən hüquqi tənzimlənməsi bir həyati zərurətdir və artıq bu reallıq bütün dünyanın iqtisad elmi, həmçinin də tənzimləmə fəaliyyətini həyata keçirən qabaqcıl dövlətlər tərəfindən qəbul edilib və praktiki fəaliyyətdə geniş tətbiq edilməkdədir.

Tədqiqatlara əsaslanmaqla qeyd edə bilərik ki, müasir şəraitdə dövlətimiz tərəfindən bazar qanunauyğunluqları nəzərə alınmaqla iqtisadiyyatın hüquqi tənzimlənməsi məsələsinin uğurlu həlli istiqamətində bütün hüquq institutlarından

geniş şəkildə istifadə olunur.

## 1.2. İqtisadi inkişafın dövlət tənzimlənməsinin metodoloji cəhətləri

İqtisadiyyatın hüquqi tənzimlənməsinin metodoloji əsasının əsas elementlərindən biri metodlar hesab edilir. Metod - ümumilikdə milii iqtisadiyyatın, həmçinin onun sahələrinin, bölmələrinin, sferalarının və yaxud da, iqtisadi inkişaf prosesində yaranan problemlətinin, iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı tətbiq olunan vasitə, üsul və qaydaların kompleksi hesab olunur. Bir qayda olaraq dövlət tərəfindən milli iqtisadiyyatın səmərəli şəkildə tənzimlənməsi sahəsində başlıca və eləcə də aralıq məqsədlərə nail olunmaq üçün istifadə etdiyi əsas alətlər metodlar sayılır.

Beləliklə də, iqtisadiyyatın hüquqi tənzimlənməsi metodları dedikdə ümumi şəkildə cəmiyyətdə baş verən bütün səviyyədən olan iqtisadi münasibətlərin tənzimlənməsində tətbiq olunan bütün hüquqi normalar sistemi başa düşülür.

Dövlət iqtisadiyyatın hüquqi tənzimlənməsi sahəsində qarşıya qoyulmuş məqsədə tezliklə çatmağın başlıca şərti kimi iqtisadi münasibətləri tənzimləmə üzrə metodların sistemlı şəkildə müəyyənləşdirilməsinə və onların əsaslandırılmış qaydada tətbiqinə xüsusi diqqət yetirir.

Müasir dövrdə iqtisadiyyatın hüquqi tənzimlənməsi metodlarına münasibətdə müəyən fərqli yanaşmalar mövcuddur. Bu yanaşmalar qabaqcıl dünya alimləri tərəfindən formalaşdırılıb. Beləki məşhur rus hüquqşünası V.Lazarevin «Hüquq və dövlət nəzəriyyəsinin əsasları» adlı tədqiqatında iqtisadiyyatın hüquqi tənzimlənmə metodu kimi tətbiq edilən hüquqi qaydalar və üsulların məcmusunu qeyd edir və onları belə xarakterizə edir:

a) iqtisadi münasibətlərin iştirakçılarının hüquqlarının və vəzifələrinin formalaşmasının başlıca şərti;

b) hüquq münasibəti iştirakçılarmın hüquq və vəzifələrinin qarşılıqlı əlaqə üsullan;

c) iqtisadi hüquqi münasibətlərin subyektlərinin hüquqlarının və vəzifələrinin təmin olunmasının metodlarının səciyyəvi xarakterləri (sanksiya, hüquqi prosedurlar və s.)

V.Lazarev iqtisadiyyatın hüquqi tənzimlənməsinin metodlarını 2 qrup üzrə təsnifləşdirirdi: əsas metodlar və əlavə metodlar.

Əsas əsas metodlara bunlar aid edilirdi:

a) pozitiv vəzifələndirmənin metodları. Bu metodlar iqtisadi subyektlər qarşısında aktiv fəaliyyətlə bağlı vəzifələr müəyyənləşməsini tələb edir;

b) icazəvermə metodları. Onlar vasitəsilə iqtisadi subyektlər aktiv fəaliyyət imkanları əldə edirlər;

c) qadağanetmə metodları. Bu metodlar iqtisadi subyektlərin üzərlərinə qanundankənar davranışlara yol verilməməsi üzrə məhdudiyyətlər müəyyənləşdirir.

2-ci qrup metodlara - əlavə metodlara isə iqtisadi subyektlərin mükafatlandırması və tövsiyyələrin verilməsi kimi hüquqi tənzimləmə üzrə qaydalar daxil olunur.

Bununla da V.Lazarev 1-ci qrup - əsas metodlarar sistemini təşkil edən spesifik metodları imperativ və dispozitiv metodlar kimi təsnifləşdirir.

İmperativ - amiranəlik metodların mahiyyəti onların qətiyyətli şəkildə məcburetmə xarakterli olmasında təzahür edir. Bu odeməkdir ki, imperativ metodların tətbiqi hüquqi normaların tələbinə qeyd-şərtsiz əməl etməyi vacib edir. İmperativ metodlar əsas hüquqi vasitələr kimi inzibati üsullardan yararlanırlar.

Dispozitiv metodlar isə subyektlərdə müəyyən sərbəstliyə, təşəbbüs nümayiş etməyə, onlarda hər-hansı bir davranışlardan ən faydalısını seçməkdə azad qərar qəbul etməyə iatiqamətlənir. Nəticə etibarı ilə, bu da iqtisadi subyektlərə öz davranışlarını maraqlarına müvafiq şəkildə nizamlamağa imkan yaradır.

Bir sıra ədəbiyyatlarda özünəməxsus şəkildə olaraq iqtisadiyyatın hüquqi tənzimlənməsinin metodlarının 2 qrupu göstərilir:

a) İcazəverici metodlar;

b) Qadağanedici metodlar.

Müasir hüquqi tənzimləmə sahəsində hüquqşunasların bəziləri isə iqtisadiyyatm tənzimlənməsinin metodlarını 3 qrup üzrə ayırırlar:

- iqtisadi metodlar;

- inzibati metodlar;
- inzibati-hüquqi metodlar.

Hazırda ən geniş yayılmış hüquqi tənzimləmədə istifadə olunan rus alimi A.Pavluşinnın təklif etdiyi iqtisadi-hüquqi metodları misal göstərmək olar. Buna misal olaraq Azərbaycan iqtisadiyyatında vergi sferasında tətbiq olunan vergi güzəştlərini, vergi kreditlərini, vergi kanikullarını və s., bank sektorunda tətbiq olunan kredit güzəştlərini, büdcə dotasiyalarını, inflyasiyaya qarış görülən tədbirləri, qiymət tənzimləmə vasitələrini, əhalinin sosial müdafiəsi sahəsində tətbiq edilən normalar və s. göstərilə bilər.

Artıq məlum məsələdir ki, müasir hüquqi dövlətlərdə iqtisadiyyatın hüquqi tənzimlənməsinin əsas aləti hüquq normalarıdır. Hazırda Azərbaycanda hüquqi tənzimlənmə prosesində qeyri-formal mənbələrdən - hüquqi adətlərdən, hüquqi presedentlərdən istifadə olunmaqla yanaşı, formal mənbələr - normativ-hüquqi aktlardan geniş şəkildə istifadə olunur.

«Normativ hüquqi aktlar barədə» Az.Resp. Qanunda (21.12. 2010. №21-İVKQ) qeyd edilir:

«...1.0.1. normativ hüquqi akt - tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd;...» (*«Normativ-hüquqi aktlar haqqında» Az.Resp. Qanunu.21.12. 2010. №21-İVKQ. Maddə1.)*

Azərbaycanın hüquq sistemində normativ-hüquqi aktlar özlərində qüvvədə olan müvafiq hüquq normaları əks etdirirlər. Xarakterinə görə səlahiyyətverici normalar, yerinə yetirdiyi funksiyalarına görə tənzimləyici və qoruyucu, statusuna görə xüsusiləşdirilmiş, stimullaşdırma xüsusiyyətinə görə həvəsləndirici normalar geniş tətbiq olunur.

İqtisadiyyatın hüquqi tənzimlənməsi sistemində mövcud olan normativ-hüquqi aktların maksimum dərəcədə səmərəli istifadəsini təmin etmək məqsədilə

onlar müxtəlif əlamətlər əsas götürülməklə müəyyən irarxiya üzrə təsnifləşdirilirlər. Normativ-hüquqi aktların ayrı-ayrı qruplar üzrə təsnifləıdirməsi ümumulikdə iqtisadiyyatın hüquqi tənzimlənməsi proseslərinin milli maraqlara uyğun həyata keçirilməsinə əlverişli zəmin yaradır.

Bütün qeyd olunanları ümumiləşdirməklə qeyd etmək olar ki, iqtisadi proseslərin hüquqi tənzimlənməsinin metodları təsir xarakterlərinə görə belə təsnifləşdirilir:

- Məcbur etmə xarakterli metodlar.
- Qadağa xarakterli metodlar.
- Səlahiyyətverici xarakterli metodlar.
- Stimullaşdırma xarakterli metodlar.

Ümumilikdə götürdükdə isə, iqtisadi proseslərin hüquqi tənzimlənməsinin metodları 2 qrup üzrə: imperativ və dispozitiv metodlar kimi təsnifləşdirilir.

Araşdırmalar göstərir ki, əhatə dairəsinə görə də iqtisadi proseslərin hüquqi tənzimlənməsinin metodları 2 qrupdan - ümumi və xüsusi metodlardan ibarətdir. Ümumi metodlar iqtisadi proseslərin bütün sahə və bölmələrində tətbiq oluna bilər. Xüsusi metodlar isə imperativ və dispozitiv qruplara bölünməklə ayrı-ayrı sahələr və problemlərə münasibətdə istifadə edilir.

İqtisadi proseslərin hüquqi tənzimlənməsi metodlarının tətbiqində bir çox məqsədlər güdülür. Lakin, burada başlıca məqsəd milli maraqların tam təmin edilməsinə münasibətdə iqtisadi proseslərin yüksək səviyyədə tənzimləməsini təmin etməkdir.

Bu sahədə aparılan tədqiqtın nəticələrinə əsasən söyləmək olar ki, hüquqi tənzimləmənin uğurla aparılması birmənalı şəkildə dövlət tərəfindən səmərəli işləyən mükəmməl hüquqi bazanın yaradılmasından asılı bir prosesdir. Bu nöqteyi-nəzərdən, hər bir dövlət kimi, Azərbaycan dövləti də hüquqyaradan dövlət orqanlarının hər birinin onlara verilən səlahiyyətlər çərlivəsində məcəllələr, qanunlar və digər mormativ-hüquqi aktların qəbul edilməsi sahəsində uğurlu iş aparmalarına normal təşkilati-hüquqi şərait yaratmalıdır.

Təbii ki, ilk növbədə dövlət, müasir dünya təcrübəsinə əsaslanmaqla,

mükəmməl məzmunlu və formalı mormativ-hüquqi aktların işlənib hazırlanması və qəbul edilməsi prosedurlarının, həmçinin, onların icrasına nəzarətin təşkilinin hüquqi əsasını formalaşdırmalıdır. Hazırda Azırbaycanda belə bir hüquqi əsas yaradılmışdır. Yəni, 21 dekabr 2010-cu il tarixində Milli Məclis tərəfindən «Normativ hüquqi aktlar barədə» 21-İVKQ №-li Az.Resp. Qanun qəbul edilmiş və o müvafiq dövlətdaxili prosedurdan keçirilmişdir. Beləliklə də hazırda Azərbaycanda milli iqtisadiyyatın hüquqi tənzimlənməsi sahəsində qabaqcıl dünya nəzəri-praktiki fəaliyyətinə əsaslanan mormativ-hüquqi aktların işlənib hazırlanması, qəbulu və onların icrasına normal həyata keçirilməsi ölkənin maraqlarına müvafiq şəkildə yerinə yetirilir. Ən əsası isə qəbul edilmiş mormativ-hüquqi aktlarda ölkəmizdə iqtisadiyyatın tənzimlənməsi sahəsində qanunçuluq, ədalət, hüquq bərabərliyi və s. prinsiplərə ciddi şəkildə əməl edilməsi nəzərdə tutulub.

Bütün bunları müsbət qiymətləndirməklə, ədalət naminə qeyd etməliyik ki, adı çəkilən sənəddə normativ-hüquqi aktların ən mühüm elementi olan qanunların işlənib hazırlanması və qəbulu prosedurları üzrə müddəaların təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Beləki, qabaqcıl dünya hüquqyaratma təcrübəsində qanunların qəbulundan sonra onların icrasının təmin edilməsi məqsədilə əlavə olaraq həmin qanunun xüsusi icra mexanizminin yaradılması təcrübəsi aradan qaldırılıb. Başqa sözlə, qanun layihələri işlənərkən onun maddələri və müddəaları o qədər detallaşdırılmış olur ki, əlavə olaraq icra mexanizminin hazırlanmasına və müvafiq qaydada qəbuluna ehtiyac qalmır.

Hazırda, Azərbaycanda milli iqtisadiyyatın hüquqi tənzimlənməsi üzrə 100-lə qanun qüvvədədir və iqtisadiyyatın uğurla inkişaf etdirilməsinə xidmət göstərirlər. Yəni Milli Məclis ona verilən hüquqlar və səlahiyyətlər çərçivəsində hər il onlarla qanun layihəsini müzakirə edərək müvafiq qaydada qəbul edir və ölkə başçısı tərəfindən imazlznmasından sonra bu qanunlar qüvvəyə minir. Göstərmək lazımdır ki, bununla yanaşı müxtəlif səviyyələrdə hər il 100-lə digər normativ-hüquqi aktlar da qəbul edilir. Bütün bunlar Azərbaycanda iqtisadi hüquqyaratma sahəsindəki işlərin yüksək tempindən xəbər verir.

Hüquqyaratma sahəsində dünya təcrübəsinin araşdırılması da göstərir ki, bəzi hallarda hüquq sistemində müxtəlif təyinatlı qanunlarda eyni məzmunlu müddəaələr, hətta maddələr təkrarlana bilər və əğğr onlar bir-biri ilə ziddiyət təşkil etmirsə burada elə də təhlükəli hal görünmür. Lakin, elə hallar da olur ki, fərqli iki qanunun eyni problemin həlli üzrə kəsişdiyi məqamlarda onların müvafiq müddəaları arasında, hətta onlarla konstitusiyanın prinsipial müddəaəalrı arasıda müəyyən uyğunsuzluqlar və ziddiyətlər yaranır. Belə olan halda ölkə konstitusiyasının ali qüvvəyə malik normativ-hüquqi akt olduğunu nəzərəalaraq qanunlardakı ziddiyətli maddə və ya müddəaların müvafiq prosedurlardan keçməklə konstitusiyaya uyğunlaıdırılması təcili təmin edilməlidir. Bu odeməkdir ki, avtomatik olaraq bütün ziddiyətlər və uyğunsuzluqlar aradan qaldırılmış olur.

Elə hallara da təsadüf edilir ki, müxtəlif adlı, lakin eyni məzmunlu qanunlar da qüvvəyə mindirilir, yəni eyni bir iqtisadi problemin hüquqi tənzimlənməsində heç bir hüquqi yükü olmayan əlavə qanun da işə düşür. Nəticə etibarı ilə bu milli iqtisadiyyatın hüquqi tənzimlənəsində müəyyən hərc-mərcliyə gətirb çıxara bilər.

Bu problemin araşdırılmasını yekunlaşdırmaqla hüquqyaratma sahəsində bu arzuolunmaz halın aradan qaldırılmasını 2 yolunu qeyd edə bilərik:

1. Az.Resp. qanunvericiliyinin tələblərini nəzərə almaqla Azərbaycanda qüvvədə olan bütün normativ hüquqi aktların müxtəif xarakterləri əsas götürülməklə dəqiq təsnifatının aparılması. Belə olan halda qanunların və digər normativ hüquqi aktların dəqiqləşdirilmiş reestrini tərtib etmək üçün imkan yaranar.

2. Hər bir normativ hüquqi aktların və, xüsusilə də, məcəllə və qanunların Nazirlər Kabinetinin rəhbərliyi altında və Ədliyyə Nazirliyinin aktiv iştirakı ilə, digər əlaqədar nazirlikləri də cəlb etməklə, əsasən də İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi Xarici işlər Nazirliyi və Mərkəzi Bank daxil olmaqla, mütləq ətraflı və geniş iqtisadi-maliyyə, hüquqi, siyasi nöqteyi-nəzərdən ekspertizasının aparılması həyata keçirilməlidir. Bidiyimiz kimi, Ədliyyə Nazirliyi bir məkəzi hüquq orqanı kimi bütün qanunların depozitarısı funksiyasını yerinə yetirir və bu səbəbdən də say və tərkib etibarı ilə onlar haqqıda düzf\gün məlumata malikdir.

Beləliklə də hüquqyaratma prosesində ekspert kimi, Ədliyyə Nazirliyinin aktiv iştirakı bir tərəfdən qəbul olunan qnunların hüquqi keyfiyyətinin yüksək olmasına, digər tərəfdən isə bu sahədə sistemlılıyin yaranmasına şərait yaradacaq və, eyni zamanda da hüquq sistemində hərc-mərcliyə və müxtəlif təyinatlı ziddiyətlərin yaranmasına imkan verməyəcək.

Hazırda bütün dünyada olduğu kimi, Azərbaycanda da hüquqyaratma və onun icra prosesində 3 istiqamət əsas götqrqlqr:

1. Məcəllələşdirmə. Bu o deməkdir ki, dövlət tərəfindən qəbul ediən normativ-hüquqi aktların iqtisadiyyatın hüquqi tənzimlənməsində tətbiqi qısa müddətə deyil, daha uzun bir dövrə nəzərdə tutulur.

2. İnkorporasiya. Yəni, işlək qanunlar və digər normativ-hüquqi aktlarda məzmun dəyişikliyi aparmadan, onların qüvvələrinin təmərgüzləşdirilməsi.

3. Konsolidasiya. Bu onda təzahür edir ki, iqtisadi münasibətlərə münasibətdə yaranan eyni sahəli normativ-hüquqi aktlar məzmunları dəyişmədən yeganə iri tutumlu normativ-hüquqi akt şəklində birləşmə prosesi baş verir.

Normativ-hüquqi aktlann sistemləşdirilməsinin digər iki növü məcəlləşdirmə kimi mövcud qanunvericiliyin dərindən və hərtərəflim yenidən işlənməsi və ona yeni, əhəmiyyətli dəyişikliklərin edilməsini özündə əks etdirmir. Ona görə də bu iki növün geniş şərhi məqsədəuyğun deyil.

Sonda qeyd edə bilərik ki, iqtisadiyyatın hüquqi tənzimlənməsinin metodoloji əsaslarının geniş araşdırılması tədqiqatın uğurla aparılmasının başlıca şərtidir.

### 1.3. İqtisadi inkişafın tənzimlənməsinin hüquqi əsaslarının formalaşması prosesi

Azərbaycanda iqtisadi inkişafın hüquqi tənzimlənməsi prosesində mənbə rolunu normativ-hüquqi aktlar oynayırlar. Azərbaycan Konstitusiyasının 148-ci maddəsində ölkənin milli hüquq sisteminin mühüm elementləıri sayılan normativ-hüquqi aktlar çox detallaşdırılmış şəkoldə təsnifləşdirilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 147-ci maddəsində isə bu normativ-hüquqi aktın ölkənin milli hüquq sistemində ən ali qüvvəyə malik olması təsbit edilmişdir.

Mahiyyət etibarı ilə, milli iqtisadiyyat çox mürəkkəb struktura malik bir vahid sistemi təşkil edir. Yəni onun çox sayda və müxtəlif təyinatlı məhsullar istehsal edən sahələri, bölmələri və sferaları qarşılıqlı əlaqələndirilmış sistem elementlərini təşkil edirlə. Təbii ki, bu elementlər arasında fasiləsiz olaraq təşkilati-iqtisadi-hüquqi təyinatlı əlaqələr reallaşdırılır. Nəticə etibarı ilə bütün milli iqtisadiyyat çərçivəsində olduqca mürəkkəb hüquqi-iqtisadi münasibətlər formalaşır və bu münasibətlərin səmərəli şəkildə hüquqi tənzimlənmsi dövlətin iqtisadi fəaliyyətinin prioritet istiqaməti sayılır.

Məntiqi olaraq bu problemin uğurlu həlli yalnız iqisadiyyatın iqtisadi, təşkilatı, texnoloji və s. struktur elementlərinin səmərəli inkişafının hüquqi tənzimlənməsi nöqteyi-nzərindən fasiləsiz olaraq çox sayda və müxtəlif istiqamətlərdə normativ-hüquqi aktlar qəbul edilməlidir. Burada ilk növbədə söhbət qanunların qəbulundan getməlidir. Çünki, onlar dövlətin milli iqtisadiyyatın hüquqi tənzimlənməsində geniş istifadə etdiyi tənzimləmə vasitəsidirlər.

Beləliklə, elmi araşdırmalara əsaslanmaqla göstərmək olar ki, müasir dövrdə dövlət özünün iqtisadi siyasətinivə onun çoxsaylı istqamətlərini yalnız ölkədə iqtisadi qanunlara istinad etməklə uğurla reallaşdıra bilər.

Problemin şox geniş əhatəli və iri miqyaslı olduğunu nəzərə alaraq, yalnız dövlətin iqtisadi siyasətnin əsas istiqamətlərinin hüquqi aspektlərinə nəzər yetirə bilərik.

Müasir bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi sahibkarlıq fəaliyyəti

hesab olunur və bu baxımdan da Azərbaycan dövləti ölkədə azad sahibkarlığın inkişafında obyektiv olaraq maraqlıdır. Bu səbəbdən də ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi, nəticə etibarı ilə milli iqtisadiyyatın inkişafı ilə nəticələnməlidir. Bütün bu amilləri nəzərə almaqla dövlət tərəfindən milli sahibkarlığın inkişaf etdirilməsi istiqamətində əsaslandırılmış və düşünülmüş siyasət həyata keçirilir. İlk növbədə dövlət sahibkarlığın inkişafı üzrə siyasətin hüquqi əsasını formalaşdırmalıdır. Bu sahədə atılan ən mühüm addım Azərbaycan Respublikasının Konstitusiyasında (1995) sahibkarlıq fəaliyyətinin əsası sayılan mülkiyyyət münasibətləri iə bağlı prinsipial müddəaların verilməsi olmuşdur.

Azərbaycan Mülki Məcəlləsində sahibkarlığın təşkilati-iqtisadi və təşkilati-hüquqi formaları təsbit edilib. Nazirlər Kabinetinin qəbul etdiyi 2018-ci il 21 dekabr tarixli 556 №-li Qərarına müvafiq olaraq işçilərin sayı və gəlirlərin həcmi meyarları əsas götürülməklə 4 kateqoriyalı sahibkarlıq subyekti müəyyənləşdirilmişdir: mikro sahibkar, kiçik sahibkar, orta sahibkar və iri sahibkar.

Bu formalar işərisində ən çox dövlət himayəsi kiçik sahibkarlığa göstərilməlidir. Məhz bu səbəbdən də xüsusi olaraq «Kiçik sahibkarlığa dövlət yardımı barədə» Az.Resp. Qanunu (04.06.1999, № 673-İQ), onun ardınca isə Az.Resp. sahibkarlıq fəaliyyətinə dövlətin himayədarlığı üzrə tədbirlərin aparılması barədə ölkə prezidenti tərəfindən 10.09.2002 tarixlində imzalanan 783 saylı və 04.04.2002 tarixli 684 saylı fərmanları, həmçinin «Az.Resp. Prezidenti yanında Sahibkarların Şurası yaradılması barədə» 27.08.2002 tarixli 778 saylı Fərmanı və nəhayət, kiçik və orta sahibkarlığı inkişaf etdirmək üzrə müvafiq Dövlət Proqramları ölkədə bütün sahibkarlıq formalarının inkişafında samballı hüquqi əsas rolunu oynadı. Eyni zamanda, Az.Resp. Prezidentinin 01 avqust 2018-ci il tarixli Fərmanı ilə Az.Resp sahibkarlıq fəaliyyətinin genişlənməsinə dövlətin yardımı üzrə iqtisadi-hüquqi mexanizmi təkmilləşdirməklə bağlı Az.Resp Sahibkarlığı İnkişaf Fondunun yeni forması-publik hüquqi şəxs kimi yaradılmışdır.

Azərbaycanda sahibkarlığın inkişafının tənzimlənməsinin hüquqi əsası «Sahibkarlıq fəaliyyəti barədə» Az.Resp. Qanununun (15.12.1992. №405), qəbulu

ilə formalaşdırılmağa başlanmışdır. Qanunda sahibkarl anlayışı təsbit edilmiş, sahikarlıq fəaliyyətinin obyekt və subyektləri müəyyənləşdirilmiş, sahibkarlıq hüquq münasibətlərinin əsas subyektləri kimi müvafiq dövlət orqanının və sahibkarların özlərinin hüquqları, vəzifə və funksiyaları, səlahiyyətləri təsbit olunmuş, sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin prinsipləri müvafiq normalarla əsaslandırılmışdır.

Azərbaycanda sahibkarlığı daha da inkişaf etdirilməsinin hüquqi tənzimlənməsi istiqamətində Az.Resp. kiçik və orta sahibkarlığı inkişaf etdirmək üzrə 2002-2005-ci illərə xüsusi Dövlət Proqramı icra edilmişdir. Bu proqrama əsasən sahibkarlığın inkişafına dövlət dəstəyi üzrə tədbirlər kompleksi müəyyənləşmişdir (Cədvəl 1):

**Cədvəl 1: Sahibkarlı fəaliyyətinin dövlət tənzimlənməsi üzrə tədbirlər kompleksi**

| Tədbirlərin adı | Tədbirin işlənmə məqsədləri | İcraçı orqanlar | İllər |
|---|---|---|---|
| Xüsusi razılılıq tələb edən fəaliyyət növləri siyahısı mütəmadi baxılmalı və icazəvermə sisteminin mükəmməlləşməsi üzrə təkliflər işləmək. | Lisenziyalaşdırma tədbirlərinin istiqamətverici rolunun artırılması. Lisenziyalaşdırma aparılan fəaliyyət sahələrinə səmərəli nəzarət təmin olunması. | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi. | 2002-2005 |
| Kiçik və orta sahibkarlara məhsulları standartlaşdır-maq və sertifikatlaşdır-maq üzrə zəruri təşkilati-metodiki yardım göstərmək. | Kiçik və orta sahibkarlar tərəfindən istehsal edilən məhsul və xidmətlər üzrə keyfiyyət göstəricilərinin və rəqabət qabliyyətlitinin yüksəldilməsinə zəruri imkanlar yaratmaq. | İqtisadiyyat Nazirliyi | 2002-2005 |
| Kiçik və orta sahibkarlıq sahəsində istehsal edilən məhsul və xidmətlər üzrə sertifikatlaşdırılma qay-dalarını təkmilləşdirmk. | Kiçik və orta sahibkarlarlıq məhsulları və xidmətləri üzrə keyfiyyətə düzgün işləyən nəzarət mexanizminin yaradılması. | İqtisadiyyat Nazirliyi | 2003 |
| Kiçik və orta sahibkarlıq subyektlərinin ölçülərinin müəyyənləşmə meyarların daha da dəqiqləşdirilməsi üzrə təkliflər verilməsi. | Kiçik və orta sahibkarlıq sahəsinin hüdudlarının dəqiq müəyyənləşməsi qaydalarının tətbiq edilməsi. | İqtisadiyyat Nazirliyi, DSK. | 2002 |
| Dövlət sifarişlərinin icrasına kiçik və orta sahibkarlların geniş cəlb edilmə mexanizmini hazırlamaq. | Dövlət sifarişlərinin yerinə yetirilməsində kiçik və orta sahibkarlların geniş cəlb edilməsi. | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi. | 2002-2003 |

**Mənbə:** «2002-2005-ci illərə Az.Resp. kiçik və orta sahibkarlığın inkişafı» Dövlət Proqramı

Cədvəl 1-in məlumatlarına əsasən görünür ki, göstərilən proqram üzrə tədbirlər ölkədə sahibkarlığın inkişafı üçün güclü hüquqi əsas olmuşdur.

Bazar münnasibətlərinin inkişaf etdiyi bir dövrdə iqtisadiyyatın dinamik inkişafının başlıca şərtlərindən biri də ölkədə normal rəqabət mühitinin formalaşdırılmasıdır. Dövlət tərəfindən ölkədə mükəmməl rəqabət mexanizmini formalaşdırmaq istiqamətində atılan düzgün addımlar milli iqtisadiyyatın inkişafına əlverişli zəmin yaradır. Bu problemin səmərəli həllinin ən etibarlı yolu yalnız mükəmməl hüquqi bazanın yaradılmasıdır. Bu istiqamətdə «Antiinhisar fəaliyyəti haqqında» (04.03.1993, № 526), «Haqsız rəqabət barədə ARQ» (02 iyun 1995-ci il, 2 iyun 1995-ci il № 1049), «Təbii inhisarlar barədə ARQ» (15.12.1998) qəbul etmişdir və hazırda geniş tutumlu, əhatəli və daha mükəmməl «Az.Resp. rəqabət məcəlləsinin» hazırlanması prosesi gedir. Həmçinin dövlət idarəetməsi sahəsində Azərbaycanda inhisarçılıqla mübarizə aparmaq məqsədilə İqtisadiyyat Nazirliyinin nəznində Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi fəaliyyət göstərir.

Hazırda müasir bazar iqtisadi sisteminin ən funksional elementi və investisiya qoyuluşlarının maliyyələşmə mənbəyi qimətli kağızlar bazarı hesab edilir. Bu sahədə bütün prosesləri hüquqi əsasda səmərəli tənzimləmək məqsədilə 14 iyul 1998-ci il tarixində 523-İQ №-li «Qiymətli kağızlar barədə ARQ» qəbul edildi. Qanunda Azərbaycanda iqtisadi subyektlərin qiymətli kağızlarının emissiyası, dövriyyəsi, onların alqı-satqı proseslərinin reallaşdırılması qaydaları, prinsipləri və prosedurları təsbit olunmuşdur. «Qiymətli kağızlar barədə ARQ» iqtisadiyyatın şox əhəmiyyətli bir sferasında hüquqi münasıbətlərin tənzimlənməsini sahəsində dövlətin əlində çox təsitli bir slahdır.

Azərbaycan dövlətinin üzərinə düşən funksiyaları tam və ləyaqətlə yerinə yetirilməsində aparılan fəaliyyətin maliyyələşmə mənbəyi rolunu dövlət büdcəsi oynayır. Bu səbəbdən dövlət maraqlıdır ki, dövlət büdcəsi cəmiyyətin bütün tələbatının yüksək səviyyədə odənilməsini təmin edəcək maliyyə vəsaitlərinə malik olsun. Bu sahədə bütün proseslərin hüquqi əsasda tənzimlənməsi məqsədilə dövlət tərəfindən baza qanun sayılan «Büdcə sistemi barədə ARQ» (2 iyul 2002-ci il, №

358-İİQ) qəbul edilməsi ölkənin iqtisadi həyatında olduqca müsbət rol oynamışdır. Qanunda dövlət büdcəsinin layihəsinin işlənib hazırlanması, Milli Məclisdə qəbulu, icrasına nəzarət üzrə prosedurlar, qaydalar və prinsiplər təsbit olunmuşdur.

Azərbaycanın iqtisadi münasibətlər sistemində bank hüquq münasibətlərinin müstəsna əhəmiyyəti vardır. Dissertasiyanın sonrakı paraqraflarda dövlətin fiskal siyasətinin hüquqi tənzimlənməsi problemi geniş araşdırıldığı üçün. Yalnız bu sferada qəbul edilən qanunları qeyd edəcəyik. Beləki, pul-kredit sisteminin fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində hazırda Mülki Məcəllə (28.12.1999, № 779-İQ), «Banklar barədə ARQ» (16.01.2004, № 590-İİQ), «Mərkəzi Bank barədə ARQ» (10.12.2004, № 802-İİQ), «Kredit ittifaqları barədə ARQ» (2 may 2000-ci il № 876-İQ) dövlət tərəfindən hüquqi əsas kimi istifadə edilir.

Milli iqtisadiyyatın hüquqi tənzimləmə sisteminin mənbələri kimi 100-lə qanun qüvvəyə mindirilib və hazırda da bu qanunlar bu sahədə samballı hüquqi bazanı formalaşdırırlar. Bu qanunlardan xüsusi əhəmiyyətli bəzilərini qeyd etmək olar: «Az.Resp. Konstitusiyası» (1995-ci il), Mülki Məcəllə (28.12.1999), Vergi Məcəlləsi (11.07.2000), «Sahibkarlıq fəaliyyəti barədə» Az.Resp.Qanunu (15.12.1992), «Antiinhisar fəaliyyəti barədə ARQ» (02.06.1995), «Haqsız rəqabət barədə ARQ» (02.06.1995), «Təbii inhisarlar barədə ARQ» (15.12.1998), «Qiymətli kağızlar barədə ARQ» (14.07.1998), «Kiçik sahibkarlığa dövlət köməyi barədə ARQ» (04.06.1999), «Kredit ittifaqları barədə ARQ» (02.05.2000), «Banklarlar barədə ARQ» (14.06.2004) və s.

Yekunda xüsusi qeyd emək lazımdır ki, milli iqtisadiyyatın tənzimlənməsində tətbiq olunan bütün qanunlar kompleks halında hüquqi bazanı formalaşdırır ki, o da daim olaraq kəmiyyət və keyfiyyət dəyişikliklərinə məruz qalmalıdır və bu da iqtisadi mühitin çox sürətlə inkişafı üzrə təsiri altında baş verən obyektiv zərurətdən irəli gələn bir prosesdir.

## II FƏSİL. MÜASİR DÖVRDƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ

### 2.1. İqtisadiyyatın tənzimlənməsi üzrə dövlətin fiskal siyasətin reallaşdırılmasının hüquqi əsasları

Müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycanda bazar iqtisadi sisteminin formalaşması ilə paralel şəkildə bu sistemin fəaliyyətinin səmərəli tənzimlənməsi istiqamətində müvafiq normativ-hüquqi bazanın yaradılması prosesi getmişdir. İnstutsional fəaliyyətin zəruriliyini nəzərə alaraq təkcə son 15 ildə Azərbaycanda milli iqtisadiyyatın aparıcı bölməsi sayılan maliyyə sferasının səmərəli tənzimlənməsi məqsədilə dövlət tərəfindən ardıcıl olaraq mükəmməl hüquqi bazanın formalaşdırılması üzrə məqsədyönlü siyasət reallaşdırılmışdır.

Beləliklə, dövlətin iqtisadi siyasətinin ən mühüm istiqamətlərindən biri kimi fiskal siyasətin milli maraqlara uyğun həyata keçirilməsi məqsədilə ilk növbədə büdcə-vergi sahəsində islahatların uğurla həyata keçirilməsinin hüquqi əsaslarının yaradılması olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Bazar qanunlarının tələblərinə uyğun olaraq dünya standartlarına cavab verən büdcə-vergi sisteminin yaradılması və bu sistemin maksimum dərəcədə səmərəli işləməsi istiqamətində yüzlərcə normativ-hüquqi aktlar, o cümlədən məcəllələr, qanunlar, Az.Resp. Prezidentinin fərmanları və sərəncamları, Nazırlər Kabinetinin qərar və sərəncamları və s. qəbul edilmiş və onların icrasına dövlət nəzarəti həyata keçirilmişdir.

Mahiyyət etibarı ilə bazar iqtisadiyyatının əsas elementlərindən biri kimi maliyyə sistemini əsasən 2 müstəqil sahənin - büdcə və vergi sferalarının üzvü şəkildə uzlaşdırılmış fəaliyyətini təcəssüm etdirir. Bu sistemlərin səmərəli fəaliyyətini təmin etmək üçün dövlət özünün fiskal siyasətini əsaslandırılmış şəkildə işləyib hazırlayır və onun icrasına ciddi nəzarəti həyata keçirir.

Beləliklə, dövlət tərəfindən milli iqtisadiyyatın davamlı və dinamik inkişafının maliyyə təməlinin formalaşdırılması və bu sferanın səmərəli fəaliyyətinin təmin edilməsi üzrə tədbirlər kompleksi fiskal siyasətin mühüm

istiqaməti dövlətin büdcə siyasətini təşkil edir.

Bütün bu deyilənlər əsasında ölkədə hər növbəti təqvim ili üçün cari ilin son ayında ölkənin ali qanunverici orqanı sayılan Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən respublikanın baş maliyyə proqramı sayılan dövlət büdcəsi müvafiq prosedurları keçməklə Azərbaycan Respublikası Qanunu şəklində qəbul edilir.

Qeyd etmək lazımdır ki, dövlət büdcəsinin layihəsinin işlənib hazırlanmasında, onun icrasının həyata keçirilməsi və maliyyə ilinin yekununda hökumət tərəfindən hesabat verilməsinədək bütün mərhələlər dövlətin büdcə siyasətinin müvafiq hüquqi normaları əsasında reallaşdırılır. Bu hüquq normaları 2002-ci il 02 iyul tarixli 358-İİQ №-li «Büdcə sistemi barədə» Azərbaycan Respublikası Qanununda təsbit olunmuşdur. «Büdcə sistemi barədə» Azərbaycan Respublikası Qanununun 1-ci fəslində qeyd edilir:

«...Ümumi müddəalar - Bu Qanun Azərbaycan Respublikasında büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edir» («Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanunu (2002), Fəsil I. Preambula).

«Büdcə sistemi barədə ARQ» ölkənin büdcə sistemi bir vahid kimi qəbul edilməklə, onun elementləri təsnifləşdirilir və bu elementlər arasında əlaqələr kompleksi müəyyənləşdirilib.

Dövlətin büdcə siyasətinin uğurla reallaşdırılması xüsusi səlahiyyətlərə və hüquqlara malik dövlət qurumunun - Maliyyə Nazirliyinin yaradılmasını və onun fəaliyyəti üçün zəruri hüquqi əsasın mövcudluğunu tələb edir.

Mahiyyət etibarı ilə bu qanun Azərbaycan Respublikası Konstitusiyasından sonra dövlətin büdcə siyasətinin hüquqi bazasının əsasını təşkil edir. Qanunda dövlət bücəsinin gəlir mənbələri təsbit olunmuşdur (Cədvəl 2).

**Cədvəl 2: Azərbaycanın dövlət büdcəsi üzrə əsas gəlir mənbələri**

| № | Mənbələr |
|---|---|
| 1 | Fiziki və hüquqi şəxslərin gəlir vergiləri |
| 3. | ƏDV |
| 4 | Aksizlər |
| 5 | Hüquqi şəxslərdən əmlak və torpaq vergiləri |
| 7. | Yol vergiləri |
| 8. | Mədən vergilərii |
| 9 | Sadələşmiş vergilər |
| 10 | Gömrük proseslərindən toplanan rüsumlar |
| 11 | Dövlət orqanlarının fəaliyyəti nəticəsində toplanan rüsumlar |
| 15 | Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar |
| 16 | Dövlət səhmləri olan bank və kredit təşkilatlarının ödəmələri |
| 19 | DNF-an daxil olan gəlirlər |
| 20 | Büdcə vəsaitlərinin kreditləri üzrə daxil olmalar və s. |

**Mənbə:** Büdcə sistemi barədə ARQ, Bakı - 2002

Bu baxımdan da Az.Resp. dövlət başçısının 09.02.2009 tarixli 48 saylı Fərmanına əsasən «Az.Resp. Maliyyə Nazirliyi barədə Əsasnamə» təsdiq edilmişdir. Bu Əsasnamədə Maliyyə Nazirliyinın dövlət büdcəsinin formalaşdırılması və onun icrasına nəzarətin həyata keçirilməsi üzrə dövlət siyasətinin işlənib hazırlanması və onun reallaşdırılması sahəsində xüsusi səlahiyyətləri, hüquqları və vəzifələri müəyyənləşdirilmişdir. Qeyd etmək lazımdır ki, faktiki olaraq maliyyə siyasətinin reallaşdırılmasında adı çəkilən əsasnamə nazirliyin səmərəli fəaliyyətini təmin edəcək güclü hüqui təməl hesab olunur.

Büdcə sferasında dövlətin fiskal siyasətinin uğurla reallaşdırılması bu sahədə bir sıra əlavə normativ-hüquqi aktların və xüsusilə də qanunların qəbulunu zəruri edir. Dövlət büdcəsində cəmləşmiş maliyyə resurslarının və həmçininin, büdcədənkənar fondların maksimum dərəcədə düzgün və rasional istifadə edilməsini təmin etmək üçün xüsusi dövlət qurumunun fəaliyyəti tələb olunur.

Qeyd etmək lazımdır ki, bu sahədə müvafiq hüquqi müddəanı rəhbər tutularaq Az.Resp. Milli Məclisinin baş qurumu, dövlət büdcəsinin icrasına nəzarətə məsul olan Hesablama Palatası 2001-ci ildən öz funksiyalarını yerinə yetirməyə başlamışdır.

Hesablama Palatasının maliyyə nəzarəti sahəsində səmərəli fəaliyyətinin

hüquqi tənzimlənməsinin təmin edilməsi məqsədilə 02 iyul 1999-cu il tarixində 700-İQ№-li Hesablama Palatası barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və o hazırda da qüvvədədir. Bu qanunda əsasən Hesablama Palatası ona verilən səlahiyyətlər çərçivəsində maliyyə nəzarətini həyata keçirməli və mütəmadi olaraq Az.Resp. Milli Məclisinə hesabatlar verməli olan və daimi fəaliyyət göstərən bir dövlət qurumudur.

Beləliklə, Hesablama Palatası barədə Az.Resp. Qanununda (02.07.1999) Az.Resp. Hesablama Palatasının hüquqi statusu, səlahiyyətləri, vəzifələri, onun təşkilati quruluşu və iş prinsipləri də müəyyənləşdirilmişdir.

Təhlil göstərir ki, yaradılmasından keçən dövr ərzində Hesablama Palatası dövlətin fiskal siyasətinin reallaşdırılmasında olduqca səmərəli fəaliyyət aparmışdır. Lakin, geniş fəaliyyət göstərməsinə rəğmən Hesablama Palatasının fəaliyyəti hələ də maliyyə sferasının bütün seqmentlərinin fəaliyyətinə tam nəzarəti təmin edə bilmir. Təbii ki, burada əsas səbəb kimi ölkənin maliyyə sisteminin mürəkkəb və geniş əhatəyə malik olması müqabilində bu qurumun strukturlarının ona müvafiq olmamasını göstərmək olar. Həmçinin, hazırda bu sahədə mövcud hüquqi bazanın çox çox sürətlə dəyişən maliyyə şəraitinə uyğunlaşdırılmasına da ciddi zərurət yaranmışdır.

Fiskal sahədə aparılan dövlət siyasəti nəticə etibarı ilə son 15 ildə Azərbaycanın dövlət büdcəsində aşağıdakı proseslərlə nəticələnib (Cədvəl 3).

**Cədvəl 3: Dövlət büdcəsinin gəlirləri, xərcləri və kəsirinin ÜDM-yə nisbəti (%-lə)**

| | Dövlət büdcəsinin gəlirləri | Dövlət büdcəsinin xərcləri | Büdcə kəsiri |
|---|---|---|---|
| **2000** | 18,9 | 21,5 | 2,0 |
| **2005** | 82,1 | 85,5 | 3,4 |
| **2010** | 26,9 | 27,7 | 0,9 |
| **2015** | 35,7 | 38,8 | 3,1 |
| **2018** | 25,2 | 26,4 | 1,2 |
| **2020 (proqnoz)** | 29,0 | 32,3 | 2.3 |

**Mənbə:** Azərbaycan DAK-in statistik göstəriciləri əsasında hesablanıb. Az.Resp. DSK-nın materialları. 2019.

Cədvəlin rəqəmlərindən aydın olur ki, 2018-ci ildə 2000-ci ilə nisbətən dövlət

büdcəsi gəlirlərinin xüsusi çəkisi ÜDM-in ümumi həcminə nisbətdə 6,3% artaraq 25,2% təşkil edib. Həmin dövr ərzində dövlət büdcəsinin xərcləri isə 4,9% artaraq 26,4% olmuşdur. Təhlil olunan müddətdə büdcə kəsirlərin nisbəti 2%-dən 1,2%-ə enmişdir ki, bu da müsbət hal kimi qəbul edilə bilər.

Həmçinin, bunlarla paralel olaraq maliyyə-büdcə nəzarəti sahəsində fəaliyyətin daha da genişləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi məqsədilə hazırda tam yeni bir qanun layihəsi baxılmaqdadır. Bu qanun qəbul ediləcəyi halda maliyyə nəzarətinin səmərəli aparılmasını təmin edəcək, dövlətin daha əhatəli maliyyə nəzarətini həyata keçirməsinə geniş imkanlar açacaq samballı hüquqi əsas yaradılacaqdır.

Hazırd büdcə siyasətinin vacib vəzifələrindən biri də dövlət büdcəsinin gəlir və xərcləri arasında düzgün nisbətin, məğbul büdcə kəsirinin yaradılmasının təmin edilməsidir.

Məlumdur ki, 29 noyabr 2019-cu il tarixində 2020-ci ilə dövlət büdcəsi barədə Azərbaycan Respublikası Qanunu qəbul edilib və artıq icradadır. Qanunda büdcənin gəlirləri 24,2 mlrd.manat, xərcləri 26,9 mlrd.manat, kəsri isə 2,7 mlrd.manat təsdiq edilmişdir və onun aradan qaldırılmasının əsas mənbələri kimi bunlar qəbul edilib (bax cədvəl 4.):

**Cədvəl 4: 2020-ci ilə Azərbaycanın dövlət büdcəsi, mlrd.manat**

| | |
|---|---|
| Gəlirlər | 24,5 |
| Xərclər | 25,6 |
| Büdcə kəsiri və onun maliyyələşməmənbələri | 1,1 |
| I. Daxili maliyyələşmə mənbələri | |
| O cümlədən | |
| 1. Neft gəlirləri | 13,5 |
| 2. Qeyri-neft gəlirləri | 10,6 |
| 3. DNF-dən transfer | 11,3 |
| II. Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2,4 |

**Mənbə:** 2020-ci ilə dövlər büdcəsi barədə Az.Resp. Qanunu. Bakı, 2019

Mövcud büdcə sisteminin daim inkişafda olan bazar iqtisadi mühütinə uğurla uyğunlaşdırmaq üçün ilk növbədə mükəmməl hüquqi baza əsasında dövlətin

büdcə siyasətinin reallaşdırılmasnda prioritet istiqamətlərin düzgün seçilməsi olduqca vacib şərt sayılır. Müasir dövrdə büdcə proseslərinin hüquqi tənzimlənməsinin 2 mühüm istiqaməti olmaqdadır: dövlət büdcəsinin elementlərinin tarazlı şəkildə formalaşdırılması və dövlət büdcəsinin gəlir və xərcləri arasında düzgün nisbətin yaradılması.

Davamlı inkişaf mərhələsinə keçmiş Azərbaycanın büdcə siyasətində mühüm cəhət ondan ibarətdir ki, bu siyasət büdcə vəsaitlərindən milli iqtistiqiyyatın harmonik və dinamik inkişafına kifayət həcmdə maliyyə vəsaitlərinin istiqamətləndirilməsini, iqtisadiyyatın sfera, sahə və regional kəsikdə səmərəli tənzimlənməsini təmin edəcək samballı hüquqi əsasa söykənməklə həyata keçirilir.

Azərbaycanda fiskal siyasətin mühüm istiqamətlərindən biri də səmərəli işləyən vergi sisteminin formalaşdırılması və bu sistemin iqtisadi maraqlara uyğun şəkildə tənzimlənməsi üzrə dövlətin xüsusi işləyib hazırladığı və ardıcıl həyata keçirdiyi tədbirlər kompleksi - vergi siyasətidir. Şübhəsiz ki belə olduqca mühüm və mürəkkəb problemin uğurlu həlli yalnız dövlətin formalaıdırdığı hüquqi baza əsasında yaradılan və fəaliyyət göstərən hüquqi tənzimləmə mexanizmi vasitəsi ilə mümkün sayıla bilər.

Araşdırmalar göstərir ki, Azərbaycanda səmərəli işləyən vergi sisteminin formalaşdırılması müstəqilliyin ilk dövrlərindən başlayaraq ardıcıl həyata keçirilmişdir. Təbii ki, bu sahədə müsbət nəticələrin alınması ölkədə köklü vergi islahatlarının aparılması fonunda dövlətin aktiv şəkildə fiskal siyasətin reallaşdırılması mütləq şəkildə müvafiq hüquqi baza əsasında mümkün olmuşdur. Vergilər sahəsində islahatların aktivləşməsi XX əsrin 90-cı illərinin 2-ci yarısından başlayaraq dövlətin vergi siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Beləki, Az.Resp. Prezidenti tərəfindən imzalanmış 2 xüsusi Fərman: 17.06.1996 və 07.01.1997 tarixlı fərmanlar vergi qurumlarına vergi nəzarəti sahəsindəki fəaliyyətlərində yeni prioritetləri, vəzifələri, qaydaları və hüquqları müəyyənləşdirdi. Bu fərmandan gələn tələblərə müvafiq olaraq vergi sisteminin özündə əsaslı islahatlar reallaşdırılmağa başlandı. Başqa sözlə, Azərbaycanın vergi sistemi müasir dünya təcrübəsinə və standartlarına əsaslanan prinsiplər üzrə yeni

struktura və fəaliyyətə nizamlandı. Burada ilk növbədə vacib məsələ vergilərin dövlət büdcəsinin formalaşdırılması ilə daha sıx əlaqələndirilməsi və bu sahədə dövlət tərəfindən qəbul edilmiş hüquqi aktların uzlaşdırılması əsasında fiskal siyasətin reallaıdırılmasının təmin edilməsi hesab olunurdu.

Bu problemin köklü həlli istiqamətində 1999-cu ilin iyun ayından etibarən vergi strukturları tərəfindən fiskal siyasətin reallaşdırılması üzrə səmərəli fəaliyyətin aparılması üzrə mükəmməl hüquqi əsasın yaradılması prosesi diqqət mərkəzində saxlanmışdır.

Azərbaycanda səmərəli vergi siyasətinin reallaşdırılması üzrə samballı hüquqi əsasın yaradılması prinsipial yeni əsasda işlənmiş Azərbaycan Respublikasının Vergil Məcəlləsinin müvafiq qaydada işlənib hazırlanmasl və qəbulu sayıla bilər. Beləki, 2000-ci ilin iyulun 7-də Milli Məclis tərəfindən qəbul edilən və 2001-ci ilin yanvarın 01-dən tətbiq edilməyə başlanan Azərbaycan Respublikasının Vergi Məcəlləsi ınüasir vergi siyasətinin fundamental əsasını təşkil etməkdədir. Olduqca mürəkkəb quruluşa malık və geniş əhatəli bu məcəllə hazırda Azərbaycanda vergi proseslərinin milli maraqlara uyğun həyata keçirilməsində etibarlı hüquqi təminat rolunu oynayır.

Dünya təcrübəsi göstərir ki, dövlətin fiskal siyasəti nə qədər əsaslandırılmış və əhatəli olsa da bu siyasəti reallaşdıran mükəmməl təşkilati-hüquqi struktura və geniş spektorlı sistemə malik dövlət qurumu olmadan, bu siyasətin reallaşdırılma imkanları ciddi şəkildə məhdudlaşmış olur. Məhz bu amili nəzərə almaqla Azərbaycanda da dövlət tərəfindən mövcud vergi orqanının fəaliyyət imkanlarının əsaslı şəkildə genişləndirilməsi istiqamətində təsirli addımlar atıldı. Başqa sözlə, bu sahədə də köklü islahat aparıldı. Beləki, Az.Resp. Prezidentinin 2000-ci il fevralın 11-də imzaladığı Fərmanla o dövrdə vergilər sahəsində Azərbaycanda aparıcı qurum sayılan Baş Dövlət Vergi Müfəttişliyi ləğv edildi və onun əsasında Azərbaycan Respublikasının Vergilər Nazirliyi formalaşdırıldı. Beləliklə də Az.Resp. Vergilər Nazirliyi milli iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi istiqamətində dövlətin fiskal siyasətinin reallaşdırılmasında favorit bir dövlət qurumu rolu oynamağa başladı.

Vergilər sahəsində 2000-ci ildə baş verən prosesləri xarakterizə etməklə söyləmək olar ki, bu il dövlətin vergi siyasətinin hüquqi əsasının formalaşdırılması nöqteyi-nəzərindən fundamental hüquqyaratma ili sayıla bilər.

Vergi sferasında mükəmməl hüquqi bazasının yaradılması, vergi proseslərinin təkmilləşdirilməsi, vergilərin milli iqtisadiyyatın inkişafına müsbət təsirinin gücləndirilməsi nəticə etibarı ilə vergilərin tənzimlənməsi sahəsində dövlətin əlində səmərəli işləyən hüquqi mexanizmin yaradılması ilə sonlandı. Dövlətin vergi siyasətinin əsalandırılmış olması və düzgün aparılması milli iqtisadiyyatın davamlı və dinamik inkişafının etbarlı təminatçısı oldu və ölkədə sahibkarlığın tərəqqisi üçün əlverişli mühitin yaranmasına səbəb oldu.

Deyilənlərin davamı olaraq 2001-ci il 01 yanvardan işə düşmüş Az.Resp. Vergi Məcəlləsi milli iqtisadiyyatın səmərəli tənzimlənməsində güclü silaha çevrildi. Bir sözlə, vergi islahatlarının bütün istiqamətləri vergi münasibətlərinin tənzimlənməsinin hüquqi əsasını qoyan Vergi Məcəlləsində öz əksini tapdı. Az.Resp. Vergi Məcəlləsinin qəbulu, bu sahədə yeni və vahid qanunvericilik bazasının təşkili vergi sistemində aparılan islahatlara mühüm təkan verməklə ölkədə sahibkarlıq proseslərinin sürətlənməsində ciddi əsasa çevrildi.

Bu yəqindir ki, samballı hüquqi əsas, nəticə etbarı ilə, dövlətə özünün fiskal siyasətinin reallaşdırılması üçün mükəmməl hüquqi mexanizmi formalaşdırmaq və bu əsasda da milli iqtisadiyyatın inkişafı üzrə səmərəli hüquqi tənzimləmə fəaliyyətini aparmaq imkanları yaradır.

Bütün deyilənlərlə yanaşı, hüquqyaratma sahəsində qabaqcıl dünya təcrübəsini araşdırmaqla xüsusi qeyd etmək lazımdır ki, mükəmmə hüquqi bazanın yaradılması problemin birdəfəlik köklü həlli demək deyil. Başqa sözlə, 2001-ci ildən başlayaraq Az.Resp. Vergi Məcəlləsi milli iqtisadiyyatın inkişafına stimulverici təsirini qoruyub saxlamaq üçün onun bütün müddəaları və normaları mütəmadi olaraq təkmilləşdirilmə prosesindən keçmişdir. Bu onunla bağlıdır ki, ölkəmizdə iqtisadi mühit çox sürətlə təkamül edir və bu işdə Vergi Məcəlləsinin normalarının əvəzsiz rolu vardır. Lakin, həmin normaların stimulyaratma xarakterini qoruyub saxlamaq üçün onlar fasiləsiz olaraq daimi əsasda dəyişən

iqtisadi şəraitə uyğunlaşdırılmalıdır. Əks təqdirdə bu Məcəllə ümumilikdə milli iqtisadiyyatın inkişafında tormozlayıcı amilə çevriər. Məsələn, Vergi Məcəlləsinin qəbul edildiyi tarixdə onun ən mühüm normalarından biri də hüquqi şəxslərin mənfəət vergisinin 28% olması barədə müddəa idi. Müasir dövrdə həmin normanın dəyişməz saxlanması ölkədə sahibkarlığın inkişafına ciddi zərbə vura bilərdi. Qeyd etmək lazımdır ki, sonradan Vergi Məcəlləsinə aparılan müvafiq dəyişikliklərə əsasən bu norma 20%-ə endirilmişdir və ehtimal var ki, sahibkarlığa stimul yaratmaq məqsədilə bu norma daha da azaldılacaqdır.

Tədqiqat göstərir ki, vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində 2001-ci ildən başlayaraq Vergi Məcəlləsində 1500-dən artıq təkmilləşdirmələr aparılmışdır və bu da onun hüquqi tənzimləmə prosesində mühüm normativ-hüquqi baza kimi qalmasını təmin etmişdir.

Azərbaycanda həyata keçirilən uğurlu fiskal siyasət nəticə etibarı ilə vergi orqanlarının səmərəli fəaliyyətini təmin etmişdir və həmçinin, ölkədə vergi xidmətlərinin keyfiyyətini əsaslı şəkildə yüksəltmişdir. Bu sahədə Az.Resp. Prezidentinin son illərdə imzaladığı bir sıra sərəncamlar samballı hüquqi əsas rolu oynamışdır. Beləki, 2005-2007-ci illər üzrə Vergilər sahəsində inzibatçılıq fəaliyyətinin mükəlləşməsinin Dövlət Proqramı (21.10.2005), 2005-2008-ci illər üzrə Az. Resp. rabitə və informasiya texnologiyalarının inkişafının Dövlət Proqramı (2004) və s. sərəncamlar nəticə etibarı ilə ciddi hüquqi əsas sayıla bilər.

## 2.2. Dövlətin monetar siyasəti və onun hüquqi tənzimlənməsi məsələləri

Milli iqtisadiyyatın ardıcıl inkişafı məqsədilə Azərbaycan dövlətinin reallaşdırdığı iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də monetar (pul-kredit) siyasəti hesab olunur. Bütün mütərəqqi inkişaf yolu seçmiş ölkələrdə olduğu kimi Azərbaycanda da dövlətin ölkə iqtisadiyyatının mühüm sferası sayılan bank sektorunun tənzimlənməsi sahəsində apardığı fəaliyyət mütləq müvafiq hüquqi əsasa malik olmalıdır. Əks təqdirdə bu sahədə baş verən bütün proseslər hərc-mərci xarakter daşıyar və bunun da iqtisadi inkişafa olduqca sarsıdıcı mənfi təsiri ola bilər ki, belə olan halda heç bir səmərəli iqtisadiyyatdan danışmağa dəyməz.

Monetar siyasətin dövlət tərəfindən reallaşdırılması yalnız səmərəli işləyən bank sektoru vasitəsilə mümkündür. Bu baxımdan da Azərbaycanın müstəqilliyinin ilk illərindən başlayaraq dövlətin hüquqyaratma fəaliyyətinin prioritet istiqaməti kimi, monetar siyasətinin etibarlı zəmanəti sayılan hüquqi bazanın yaradılması sayılmışdır.

Beləliklə, Azərbaycanın bank sektorunun işini tənzimləyəcək hüquqi bazanın ilk samballı elementlərindən biri 1995-ci ilin 12 noyabrında qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası sayılmalıdır. Məhz Konstitusiyanın 19-cu maddəsində milli valyutanın iqtisadi dövriyyəyə çıxarılması ilə bağlı məşhur müddəalar verilmişdir. Azərbaycan Konstitusiyasının bu müddəasına əsasən milli valyutanın emissiyası, tədavülü və dövriyyədən çıxarılması yalnız ölkənin mərkəzi iqtisadi idarəetmə orqanı sayılan Məkəzi Bankın səlahiyyətlərinə aid edilmişdir.

Həmçinin, ölkə Konstitusiyasında Mərkəzi Bankın mərkəzi dövlət orqanı kimi ölkədə pul-kredit və valyuta siyasətinin reallaşdırılmasına məsul olduğu da təsbit edilmişdir. Dövlətin müstəsna mülkiyyətində olması da müəyyən edilmişdir.

Azərbaycanda ilk dəfə Mərkəzi Bankı barədə 1992 il 07 avqust tarixli Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Həmin qanunun tələblərinə uyğun olaraq 1992-ci ilin avqustun 15-də Azərbaycanın milli pul vahidi - manat dövriyyəyə daxil edildi.

Qeyd etmək lazımdır ki, sonrakı illərdə artıq ölkənin bank sistemi çox sürətlə

inkişaf edərək yeni bir mürəkkəb fəaliyyət mərhələsinə keçdi ki, bu da artıq onun tənzimlənməsində yeni hüquqi mexanizmin tətbiqini zəruri etdi. Bu səbəbdən də dövlət yeni mətndə olan və dövrün standartlarına cavab verən qanun layihəsi hazırladı. Beləliklə də 30 iyun 1996-ci ildə «Az. Resp. Mərkəzi Bankı barədə» yeni redaksiyalı bir Qanun qəbul edildi. Bank qanunvericiliyinin daha da inkişafı və ölkədə bank sisteminin mühüm elementləri sayılan kommersiya banklarının fəaliyyətinin tənzimlənməsinin hüquqi mexanizminin formalaşdırılması məqsədilə 1996 il 14 iyunda həm də Bank və bank fəaliyyəti barədə Azərbaycan Respublikası Qanunu qüvvəyə mindirildi. Beləliklə də Azərbaycanda bank sektorunun səmərəli tənzimlənməsi üçün samballı hüquqi mexanizm yaradılmış oldu.

Bankçılıq sahəsində problemləri həll etmək üçün Az.Resp. Prezidentinin 2002 il 26 dekabrda imzaladığı Fərmanla müasir milli bank sisteminin hüquqi bazasının yenilənməsi barədə qərar qəbul edildi. Mahiyyət etibarı ilə bu fərman Azərbaycanda bank sisteminin yeni daha yüksək tənzimləmə mərhələsinə keçidinin hüquqi əsasını təşkil etdi.

Aparılan ardıcıl və məqsədyönlü hüquqyaratma fəaliyyəti nəticəsində 2004-cü ildə bank sektorunda artıq 2 yeni daha mükəmməl qanunlar qəbul olundu: Banklar barədə Azərbaycan Respublikasının Qanunu (16.01.2004) və Mərkəzi Bank barədə Azərbaycan Respublikasının Qanunu (10.12.2004).

Mərkəzi Bank barədə Az.Resp. Qanunu Mərkəzi Bankın bütün istiqamətlər üzrə fəaliyyətini genişləndirmiş və onun səmərəliliyinin artmasına şərait yaradıbdır. Bu qanuna əsasən dövlətin fiskal və valyuta siyasətlərinin işlənməsi və reallaşdırılması, ölkə ərazisində tədiyyə sisteminin formalaşdırılması və fəaliyyətinin idarə olunması, bütün maliyyə fəaliyyətlərinə bank nəzarətinin aparılması, dövlətin qızıl və valyuta ehtiyatlarının yaradılması və tənzimlənməsi Mərkəzi Bankın ən önəmli vəzifələri kimi müəyyənləşib.

Azərbaycanda son qəbul edilmiş bank sferasını əhatə edən qanunlar yeni daha mükəmməl hüquqi tənzimləmə mexanizminin formalaşdırılmasına imkan verdi və bu qanunların normalarına əsasən ölkəmizdə daha səmərəli formada bank nəzarətinin prinsiplərinin, formalarının və metodlarının tətbiqinə şərait yaratdı.

Burada əsas məqam da ondan ibarətdir ki, yeni yaradılan bu hüquqi müxanizm Mərkəzi Banka öz səlahiyyətləri və vəzifələrinin qabaqcıl dünya standartlarına, həmçinin beynəlxalq normalara uyğunlaşdırmaq və bu əsasda da onları müvafiq şəkildə reallaşdırmaq imkanı yaratdı. Buraya ilk növbədə ölkədə bank sisteminə əhalinin və xüsusilə də sahibkarların etibarının artmasına, əmanətlərin cəlb olunması və kreditorların daha etibarlı şəkildə investisiya proseslərinə cəlb edilməsinə stimul yaradıldı.

Monetar siyasətin reallaşdırılmasının hüquqi mexanizmində Mərkəzi Bank barədə Az.Resp. Qanununda Mərkəzi Bankın funksiyalarının təsbiti ilə əlaqədar normalar xüsusi rol oynayırlar. Beləki, bu qanununun 5-ci maddəsində xüsusi qeyd edilir ki, Az.Resp. Mərkəzi Bankı dövlətin monetar siyasətini həyata keçirir, ölkədə nəqd pul dövriyyəsini təmin edir, pul nişanlarının emissiyası ilə məşğul olur, kommersiya banklarının fəaliyyətini tənzimləyir və s.

Beləliklə, bank qanunvericiliyini araşdırmaqla belə bir nəticəyə gəlmək olar ki, Banklar barədə ARQ (16.01.2004) və Mərkəzi Bankı barədə Azərbaycan Respublikasının Qanunu (10.12.2004) tendem halında Azərbaycanın bank sektorunda səmərəli fəaliyyət göstərən mükəmməl bir hüquqi tənzimləmə mexanizminin yaradılmasının əsasını təşkil edirlər.

Hər hansı bir mərkəzi dövlət orqanının öz üzərinə düşən funksiyaları yüksək səviyyədə yerinə yetirməsi üçün onun hüquqi statusu, təşkilati strukturu səlahiyyətləri müəyyən normativ-hüquqi aktlarda təsbit olunmalıdır. Azərbaycan Konstitusiyasına əsasən hər bir mərkəzi dövlət orqanının (nazırlik, komitə, mərkəzi dövlət təşkilatları) fəaliyyətini tənzimləyəcək mexanizm Az.Resp. Prezidentinin imzaladığı müvafiq fərman və ya sərəncamla hüqiqi qüvvəyə mindirilmiş əsasnamə sayılır. Onlardan fərqli olaraq Az.Resp. Mərkəzi Bankı monetar siyasətin tənzimlənməsini birbaşa olaraq 10 dekabr 2004 il tarixli «Mərkəzi Bank haqqında» Azərbaycan Respublikasının Qanunda əks olunmuş normalar əsasında formalaşan mexanizm vasitəsi və ona birmənalı şəkildə istinad etməklə həyata keçirir.

Bu baxımdan Mərkəzi Bankı barədə Azərbaycan Respublikasının Qanunun müddəaları əsasında yaradılan hüquqi tənzimləmə mexanizmi hazırda bank

sektorunun tənzimlənməsinin fəaliyyətdə olan ən əsas mexanizmi rolunu oynayır. Yəni, adı çəkilən qanunun normaları Mərkəzi Bankın tənzimləmə prosesində statusunu, vəzifələrini, səlahiyyətlərini və hüquqlarını müəyyənləşdirməklə fiskal siyasətin tənzimlənməsində məsul dövlət orqanı kimi onun fəaliyyət hüdudlarını təsbit etmiş və bununla da fiskal siyasətin prioritet tənzimləmə istiqamətlərini təyin etmişdir.

Qanunda dövlət orqanı kimi, Mərkəzi Bankın hüquqi statusu təsbit edilməklə, onun müstəqil balansı, nizamnamə kapitalı və dövlətin mülkiyyəti sayılan başqa əmlakları mövcuddur. Həmçinin, Mərkəzi Bankın nizamnamə kapitalı 10 milyon manatdır.

Eyni zamanda həmin qanuna əsasən Mərkəzi Bankın fəaliyyəti nəticəsində əldə olunan mənfəət onun, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlara uyğun olaraq, gəlirlərindən xərclərinin çıxılması nəticəsində qalan hissə sayılır. Mərkəzi Bankın gəlirləri pul-kredit fəaliyyətindən alınan gəlirlər və qanuna zidd sayılmayan başqa mənbələrdən əldə edilir. Mərkəzi Bankın mənfəətinin bölüşdürülməsi belə aparılır: mənfəətin bir hissəsi Mərkəzi Bankın kapital ehtiyatlarının formalaşdırılmasına istiqamətlənir; müəyyən hissə bankın təsərrüfat məsrəflərinin ödənilməsinə gedir; məsrəflərinin qalan bütün məbləği isə sərbəst dövlət büdcəsinin müvafiq fonduna köçürülür. Qanunvericiliyə əsasən mənfəətin sərbəst qalığı Mərkəzi Bankın ilin yekunu üzrə hesabatının auditor yoxlamasının hesabatı təsdiqlənməklə dövlət büdcəsinə köçürülməlidir.

Deyilənlərlə yanaşı, Mərkəzi Bank monetar siyasətin tənzimlənməsi istiqamətində səlahiyyətləri çərçivəsində hüquqi tənzimləmə mexanizminin fəaliyyətinin yüksəldilməsi məqsədilə özünün normativ-hüquqi aktlarını qəbul etmək hüququna malikdir.

Ümumiyyətlə, ölkədə monetar siyasətin milli maraqlara uyğun həyata keçirilməsinin təmin edilməsi baxımından Azərbaycanın Milli Bank sisteminin quruluşu, onun elementləri və hər bir elementin bu sistemdə yeri və rolu düzgün müəyyənləşdirilməlidir. Beləliklə bank qanunvericiliyinə əsasən Azərbaycan Respublikasında beynəlxalq standartlara uyğun olaraq 2 pilləli bank sistemi

formalaşdırılmışdır. Tərkib etibarı ilə milli bank sistemi 1-ci pillədə mərkəzi dövlət orqanı kimi dövlətin mənafelərini təmsil edən Mərkəzi Bank, 2-ci pillədə isə digər kommersiya bankları və bank olmayan kredit təşkilatlarından ibarətdir. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunduğu kimi Mərkəzi Bank dövlətin fiskal siyasətinin həyata keçirilməsinə məsul olan bir mərkəzi dövlət orqanıdır və o sistemin 1-ci pilləsində durmaqla qalan bütün bank təşkilatlarının fəaliyyətini tənzimləməklə ümumilikdə ölkədə pul-kredit münasibətlərinin milli maraqlara uyğun formalaşdırılmasına bilavasitə cavabdehlik daşıyır. Bütün bazar iqtisadiyyatlı hüquqi dövlətlərdə olduğu kimi, Mərkəzi Bankı öz monetar tənzimləmə fəaliyyətini Azərbaycan Respublikası Konstitusiyası (1995), Azərbaycan Respublikası Mülki Məcəlləsi (2000) və ardıcıl olaraq bu sahədə qəbul edilmiş çox sayda əlaqədar qanunlara əsaslanmaqla, həmçinin, Azərbaycan dövlətinin pul-kredit sahəsində imzaladığı ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərlə əsaslanmaqla həyata keçirir. Başqa sözlə, Azərbaycanda fəaliyyətdə olan hüquqi tənzimləmə mexanizmi əsasən yuxarıda adı çəkilən normativ-hüquqi aktların müddəaları əsasında formalaşdırılıb və hazırda da monetar siyasətin tənzimlənməsində dövlətin əlində ən güclü silah hesab olunur.

Tədqiqata əsasən söyləmək olar ki, dövlətin monetar siyasətinin uğurla reallaşdırılmasında müvafiq hüquq normalarına əsasən hər bir kommersiya bankın təşkilati-hüquqi forması səhmdar cəmiyyəti şəklində müəyyənləşib və onların fəaliyyət göstərməsi üçün ilk növbədə fərdi nizamnamələri tərtib edilir və müvafiq qaydada hüquqi qüvvəyə mindirilir. Bankların nizamnamələridə hər hansı dəyişikliklərin aparılması Az.Resp. Mərkəzi Bankının əvvəlcədən rəsmi şəkildə verdiyi xüsusi icazə ilə mümkün sayılır. Beləliklə də, bankın nizamnaməsi onun fəaliyyətinin hüquqi əsasını təşkil edir. Ümumiyyətlə, bu nizamnamələrə əsaslanmaqla hər bir bank aşağıdakı istiqamətlərdə öz fəaliyyətlərini qura bilər:

- bankın daxili təşkilati-iqtisadi struktur bölmələrinin təşkili;
- bankın struktur bölmələrinin fəaliyyətinin təşkili qaydalarının müəyyənləşdirilməsi;
- bankın struktur bölmələrinə təcrübəli və savadlı kadrların təyin edilməsi;

- bankın fəaliyyətini idarə və nəzarət edəcək daimi işləyən bölmələrin funksiyalarının müəyyənləşdirilməsi;
- bankın rəhbər heyətinin onun fəaliyyəti üzrə səlahiyyətlərinin təsdiq edilməsi;
- zəruri hallarda bankın fəaliyyətinin ərazi prinsipləri üzrə genişləndirilməsi istiqamətində filialların və nümayəndəlikləri açılması və onların normal fəaliyyət göstərməsinə şərait yaradılması və s.

Müasir bank sistemində dövlətin monetar siyasətinin uğurla reallaşdırılmasında Bank olmayan kredit təşkilatlarının (BOKT) əvəzolunmaz rolu vardır. Bu təşkilatların ölkədə kredit siyasətinin həyata keçirilməsində mühüm təsir imkanları mövcuddur. Monetar siyasətin reallaşdırılmasında Bank olmayan kredit təşkilatlarının əsas funksiyası ondan ibarətdir ki, onlar fasiləsiz olaraq milli iqtisadiyyatın inkişafı üçün zəruri olan kredit resurslarını səfərbər edərək iqtisadi proseslərin bu resurslarla təminatını həyata keçirirlər.

Təbii ki, Bank Olmayan Kredit Təşkilatların fəaliyyəti müəyyən hüquqi baza əsasında həyata keçirilir. BOKT-rın fəaliyyətinin hüquqi tənzimlənməsində hüquqi baza kimi Azərbaycan Respublikası Mülki Məcəlləsi (2000), Kredit ittifaqı barədə Azərbaycan Respublikası Qanunu (02.05.2000 № 876-IQ), Mərkəzi Bank barədə Azərbaycan Respublikası Qanunu (2004) və s. qanunların normaları mühüm rol oynayır. Burada xüsusi bir hal qeyd olunmalıdır ki, Bank Olmayan Kredit Təşkilatların fəaliyyəti həm yuxarıda qeyd olunan qanunla təsbit olunan, həm də Mərkəzi Bankın özünün qəbul etdiyi normativ-hüquqi aktlarla müəyyənləşdirilmiş səlahiyyət və funksiyalar sərhəddində həyata keçirilir. Həmçinin, Bank Olmayan Kredit Təşkilatlar dövlətin öhdəliklərinə və dövlət də onların götürdüyü öhdəliklər üzrə cavabdehlik daşımırlar.

Kredit fəaliyyəti ilə qanuni şəkildə məşqul olmaq üçün Bank Olmayan Kredit Təşkilatlar tərəfindən Az.Resp. Mərkəzi Bankının müddətsiz xüsusi razılığının (lisenziyasının) alınması zəruridir.

Monetar siyasətin reallaşdırılmasının hüquqi tənzimlənməsi sahəsində qabaqcıl dünya təcrübəsini araşdırmaqla, onun Azərbaycanın bank sisteminin

fəaliyyətinin dövlət tərəfindən müvafiq tənzimləmə təcrübəsi ilə tutuşduraraq belə bir nəticəyə gəlmək olar ki, son 20 ildə ölkəmizdə bank sektorunun müasir beynəlxalq standartlara uyğunladırılması istiqamətində çox ciddi irəliləyişlər baş vermişdir. Laki, bütün bunlara baxmayaraq, hazırda monetar siyasətin tənzimləməsi sahəsində səmərəli işləyən hüquqi tənzimləmə mexanizmi formalaşdırılmasına baxmayaraq milli iqtisadiyyatın tarazlı inkişafının pul-kredit təminatı baxımından həyata keçirilən siyasət və xüsusilə də, kredit siyasəti zəruri tələbata tam cavab vermir. Bu o deməkdir ki, monetar siyasətin hüquqi tənzimləmə mexanizminin daha da təkmilləşdirilməsinə zərurət mövcuddur.

Təbii ki belə ciddi bir problemin sistemli və ardıcıl həlli müvafiq Məqsədli Dövlət Proqramlarının qəbulu və onların səmərəli şəkildə tətbiqi yolu ilə mümkündür.

Milli iqtisadiyyatın hüquqi tənzimlənməsi prosesində dövlətin reallaşdırdığı monetar siyasətin mürəkkəb xarakterə malik olması nəticə etibarı ilə onun bir çox istiqamətlə üzrə aparılmasını zəruri etmişdir. İlk növbədə, ölkədə makroiqtisadi proseslərin uğurlu aparılmasının pul-kredit sabitliyinin təminatlılığı əsasında aparılması xüsusi qeyd edilməlidir. Buraya milli valyutanın - manatın stabilliyi, geniş əhatəli və əlverişli kredit təminatı, investisiya proseslərinin banklar tərəfindən sərfəli faizlərlə maliyyələşdirilməsi üzrə Mərkəzi Bank tərəfindən reallaşdırılan siyasətlər və s. aid edilməlidir.

Hazırda Azərbaycanda makroiqtisadi stabilliyin qorunması istiqamətində Mərkəzi Bankın səlahiyyətləri çərçivəsində bir çox hüquqi mexanizmlər işə salınmışdır. Beləki, mükəmməl monetar tənzimləmə mexanizmi formalaşdırılmışdır və buna paralel olaraq düşünülmüş faiz siyasəti həyata keçirilməkdədir. Bu siyasət milli iqtisadiyyatda və xüsusilə də qeyri-neft sektorunda sahibkarlığın stimullaşdırılması məqsədilə əsasən ərzaq və yeyinti sənaye sahələrində, aqrar sektorda fəaliyyət göstərən sahibkarlara güzəştli kreditlərin verilməsi praktikasının genişləndırılməsi, bəzi hallarda isə onlara faizlərin ümumiyyətlə aşağı salınması üzrə tədbirlərdən ibarətdir.

Məlumdur ki, Az.Resp. Konstitusiyasına əsasən ölkədə yeganə tədiyyə

vasitəsi kimi milli valyuta - manat qəbul olunmuşdur. Mərkəzi Bank sərbəst monetar siyasəti aparmaqla makroiqtisadi göstərici kimi manatın məzənnəsini qorumaq istiqamətində əsaslandırılmış fəaliyyəti davam etdirməkdədir. Bura ilk növbədə düşünülmüş pul emissiyası siyasəti, təsirli antiinflyasiya tədbirləri, büdcə kəsirinin örtülməsində əsaslandırılmış kredit təminatı kimi fəaliyyət aiddir.

Aparılan düzgün monetar siyasətin nəticəsi kimi son illərdə beynəlxalq maliyyə təşkilatlarından kredit alınması prosesi demək olar ki, artıq dayandırılıb və bu da o deməkdir ki, dövlətin üzərindən beynəlxalq borclara xidmət etmək kimi ağır bir yük götürülüb.

Milli iqtisadiyyatın inkişafında monetar təmayüllü hüquqi tənzimləmənin mexanizminin yaradılması fəaliyyətinin nəticəsi kimi, son illərdə dövlətin ardıcıl olaraq qəbul etdiyi və reallaşdırdığı məqsədli dövlət proqramları sayılır. Beləki Az.Resp. Prezidentinin 27.09.2018 tarixində imzaladığı müvafiq fərmanla 2018-2020-ci illər üzrə xüsusi Dövlət Proqramı uğurla həyata keçirilməkdədir. Proqramın tam icrası Azərbaycanda nağdsız ödənişlərin illik həcminin təqribən 17 milyard manat artmasına imkan verəcəkdir və bu da ölkədə nağdsız pul ödənişlərinin xüsusi çəkisinin illik 7% artması üçün geniş şərait yaradacaqdır.

Monetar siyasətin hüquqi tənzimlənməsi sahəsində dövlətin daha bir ciddi addımı olmuşdur. Bu öz təzahürünü Az.Resp. Prezidentinin 06.12.2016 tarixindəki Fərmanı ilə qüvvəyə minmiş Maliyyə xidmətləri inkişafının SYX-nin tam icrası monetar tənzimləmə vasitələrindən istifadə etməklə milli iqtisadiyyatın inkişafına güclü təkan verəcəkdir.

## 2.3. Milli iqtisadiyyatın hüquqi tənzimləmə mexanizninin səmərəli fəaliyyətinin təşkilinin mövcud durumu

Müasir bazar münasibətləri şəraitində dövlətin iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi funksiyalar içərisində xüsusi rol oynayan sahə milli iqtisadiyyatın tənzimlənməsinin səmərəli işləyən mükəmməl hüquqi mexanizminin formalaşdırılması və onun fəaliyyətinin maksimum dərəcədə uğurlu şəkildə ölkənin sosial-iqtisadi maraqlarının ödənilməsinə istiqamətləndirilməsidir.

Belə olduqca vacib və strateji əhəmiyyətli məsələnin tam və uğurlu həlli, ilk növbədə, iqtisadi tənzimləmənin hüquqi mexanizminin əsası sayılan və milli iqtisadiyyatın bütün bölmə, sahə, sfera və problemlərinin bütövlükdə əhatə edən samballı hüquqi bazanın yaradılmasıdır. Yalnız milli iqtisadiyyatın kompleks inkişafını əhatə edəcək qanunlar və digər normativ-hüquqi aktlar toplusu sistemli şəkildə işə düşdükdən sonra iqtisadiyyatda səmərəli fəaliyyət gösərmək imkanına malik hüquqi tənzimləmə mexanizmin formalaşdırılması mümkün sayıla bilər. Belə bir obyektiv nəticə əldə edilməsi Almaniya, ABŞ, Norveç kimi qabaqcıl dünya ölkələrinin hüquqi tənzimləmə sahəsindəki mütərəqqi təcrübələrinin dərindən öyrənilməsi əsasında milli iqtisadiyyatımızın problemlərinin həllinə kompleks şəkildə yanaşmaqla mümkün olmuşdur.

Azərbaycan dövləti milli iqtisadiyyatın kompleks şəkildə inkişafı kimi çətin bir problemin həllini öz tənzimləyici fəaliyyətində prioritet istiqamət kimi seçmişdir. Bu məsələnin uğurlu həlli məqsədilə ilk növbədə milli iqtisadiyyatın dinamik inkişafı ilə bağlı həlli önəmlı əhəmiyyət daşıyan iqtisadi problemlər və bütün iatisadiyyatın inkişafında lokomotiv rolu oynayan sahələr və sferalar müəyyənləşdirilməlidir. Bundan sonra onların tənzimlənməsinin hüquqi mexanizminin formalaşdıraraq tətbiqi ilə bağlı məsələlərin həlli ön plana çəkilməlidir. Yalnız milli iqtisadiyyatın tənzimlənməsinə belə yanaşma son nəticədə özünün müsbət nəticələrini verəcəkdir.

Hüquqi tənzimləmə sahəsində qabaqcıl dünya təcrübəsi göstərir ki, milli iqtisadiyyatın tənzimlənməsi sahəsində həyata keçirilən siyasətin aparıcı istiqamətlərindən biri daxili bazarda normal rəqabətin təmin edilməsi və

inhisarçılığa qarşı təsirli dövlət tədbirlərinin yerinə yetirilməsidir.

Hazırda Azərbaycanda bu məsələnin köklü şəkildə və düzgün həlli üçün dövlətin antiinhisar siyasəti işlənib hazırlanmışdır və bu siyasət ölkədə normal rəqabətin qorunması probleminin həlli ilə sıx əlaqəli şəkildə həyata keçirilməkdədir.

Bu sahədə atılan ilk addım inhisarçılıq fəaliyyətinin və rəqabətin tənzimlənməsinin hüquqi əsaslarının yaradılması oldu. Beləki, dövlətin apardığı hüquqyaratma fəaliyyəti nəticəsində qısa müddət ərzində 3 mühüm qanun qəbul edildi. Bu qanunlardan Azərbaycan Respublikasının Antiinhisar fəaliyyəti barədə ARQ (04.04.1993. № 526), Təbii inhisarlar barədə ARQ (15.12.1998. № 590-IQ), Haqqsız rəqabət barədə ARQ (02.06.1995, №1049) qanunlarını misal göstərmək olar. Bir halı xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanda iqtisadi mühitin sürətlə inkişafı ilə əlaqədar son dövrlərədək bu qanunların hər birində onların təkmilləşdirilməsi istiqamətində çox sayda dəyişikliklər və əlavələr edilmişdir. Son nəticədə bu gün dövlətin antiinhisar və rəqabət siyasətlərinin reallaşdırılmasının səmərəli işləyan tənzimləmə mexanizmi formalaşdırıldı və o da öz fəaliyyətini uğurla aparmaqdadır

Azərbaycanda rəqabət və inhisarmılıq sahəsində mövcud qanunvercilik sisteminin əsas elementlərindən biri Antiinhisar fəaliyyəti barədə Az.Resp. Qanunudur (1993).

Beləliklə, faktiki olaraq, Antiinhisar fəaliyyəti barədə Az.Resp. Qanunda (1993) inhisarçılıqla mübarizədə dövlət tənzimlənməsinin hüquqi mexanizmi yaradılmışdır.

Hazırda Azərbaycanda antiinhisar siyasətin reallaşdırılması və rəqabətin bazarda rəğbət mühitinin qorunmasına məsul orqan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi hesab edilir. Bu xidmətin üzərinə olduqca çətin və mürəkkəb bir vəzifənin həlli düşür. Təbii ki, hər hansı bir nazirliyin nəzdində struktur bölməsi kimi fəaliyyət göstərən qurumun hüquqları, səlahiyyətləri və vəzifələri bu sahədə fəaliyyət göstərəcək mərkəzi dövlət orqanından fərqli olaraq

məhdud bir çərçivədə həyata keçiriləcək və məntiqi nəticə kimi müasir iqtisadiyyatda qüsursuz və operativ həlli tələb olunan iki vacib problem – inhisarçılığın qarşısının alınması və normal rəqabət mühitinin qorunması məsələləri özünün tam həllini tapa bilməyəcəkdir. Halbuki, istənilən inkişaf etmiş dövlətdə bu sahədə yüksək səlahiyyətlərə və hüquqlara malik mərkəzi dövlət orqanı timsalında qurumlar fəaliyyət göstərir və məsələnin xüsusi vacibliyini nəzərə almaqla onlar dövlətdən geniş maliyyə-təşkilati dəstək alırlar.

Beləliklə də, qabaqcıl dünya təcrübəsini öyrənməklə belə hesab edirik ki, hazırda Azərbaycanda artıq kritik həddə çatmış inhisarçılıq probleminin həlli istiqamətində müvafiq qanunlar əsasında formalaşdırılan hüquqi tənzimləmə mexanizminin bacarıqla tətbiqi və dövlətin antiinhisar siyasətinin düzgün reallaşdırılması üçün dövlətin iqtisadi idarəetmə sistemində yeni bir qurumun rəqabətin tənzimlənməsi üzrə nazirliyinin yaradılması və onun səmərəli fəaliyyətinin təşkili böyük aktuallıq daşıyır.

Dövlətin iqtisadi siyasətinin reallaşdırılmasında digər mühüm bir istiqamət Azərbaycanda sahibkarlıq fəaliyyətinin dinamik şə inkişafının təmin edilməsi üzrə zəruri tədbirlərin işlənib hazırlanaraq həyata keçirilməsidir.

Müasir şəraitdə düzgün hüquqi tənzimləmə fəaliyyətinin aparılması ölkədə sahibkarlığın ən həssas təbəqəsi olan kiçik və orta sahibkarlığın inkişafına güclü təkan vermişdir (bax: cədvəl 5).

Cədvəlin rəqəmlərindən göründüyü kimi, 2018-ci ildə kiçik və orta sahibkarlıq artıq 17,4 mlrd. manatlıq yeni dəyər yaratmışdır və bu da hazırda ölkənin ÜDM-nin 21%-dən artığını təşkil etmişdir.

Bundan əlavə cədvəldən göründüyü kimi, kiçik və orta sahibkarlıq sahələrində əsas kapitala yönəldilən investisiyaların məbləği demək olar ki, 7 mlrd. manat təşkil etmişdir. Cədvəl 2.5. rəqəmlərindən göründüyü kimi, bu bütün investisiya qoyuluşlarının 41,8%-ni təşkil etmişdir və qeyri-neft sektoru üzrə bu rəqəm 65,2% səviyyəsinə qalxmışdır.

**Cədvəl 5: Azərbaycanda sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri**

| Göstəricilər | 2018 | | | |
|---|---|---|---|---|
| | Cəmi sahibkarlıq | o cümlədən | | |
| | | mikro | kiçik | orta |
| Yaradılmış əlavə dəyər, milyon manat | 9836,6 | 4467,8 | 1235,5 | 4133,3 |
| İşçilərin sayı, min nəfər | 283,4 | 35,0 | 76,1 | 172,4 |
| Orta aylıq əməkhaqqı, manat | 445,3 | 294,9 | 373,5 | 517,1 |
| Əsas kapitala investisiyalar, milyon manat | 6953,0 | 2831,5 | 1046,7 | 3074,8 |
| Yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri, milyon manat | 17401,6 | 7082,9 | 2282,0 | 8036,8 |

**Mənbə:** Azərbaycanin statistik göstəriciləri 2019. Az.Resp. DSK-nın materialları

Cədvəlin rəqəmlərindən göründüyü kimi, 2018-ci ildə kiçik və orta sahibkarlıq artıq 17,4 mlrd. manatlıq yeni dəyər yaratmışdır və bu da hazırda ölkənin ÜDM-nin 21%-dən artığını təşkil etmişdir.

Bundan əlavə cədvəldən göründüyü kimi, kiçik və orta sahibkarlıq sahələrində əsas kapitala yönəldilən investisiyaların məbləği demək olar ki, 7 mlrd. manat təşkil etmişdir. Cədvəl 2.5. rəqəmlərindən görüngüyü kimi, bu bütün investisiya qoyuluşlarının 41,8%-ni təşkil etmişdir və qeyri-neft sektoru üzrə bu rəqəm 65,2% səviyyəsinə qalxmışdır.

Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanda səmərəli işləyən hüquqi tənzimləmə mexanizmı sahibkarlığın inkişafına əlverişli zəmin yaratmışdır.

Ölkəmizdə yeni sahibkarlıq münasibətlərinin inkişaf etdirilməsi dövlət tərəfindən qəbul edilmiş 3 mühüm qanuna əsaslanır. Onlara Sahibkarlıq fəaliyyəti barədə Az.Resp. Qanunu (15 dekabr 1992, № 405), İnvestisiya fəaliyyəti barədə ARQ (13 yanvar 1995-ci il № 952), Kiçik sahibkarlığa dövlət yardımı barədə ARQ (4 iyun 1999-cu il № 673-İQ) aid edilə bilər. Bu qanunların normalarına əsaslanmaqla müasir Azərbaycan iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin sürətli inkişafını tənzimləyəcək hüquqi mexanizm formalaşdırılmışdır və bu mexanizmdən təyinatı üzrə səmərəli şəkildə istifadə olunur. Təsadüfi deyil ki, XX

əsrin 90-cı illərinin 2-ci yarısında ölkənin ÜDM-nin 30%-ə qədərini formalaşdıran xüsusi bölmə sahibkarlığı hazırda bu rəqəmi 87%-ə çatdırıb.

Ümumiyyətlə kiçik və orta sahibkarlığn 2018-ci ildə milli iqtisadiyyatda tutduğu mövqeni aydın görmək üçün Cədvəl 6. məlumatlarına nəzər salmaq bu sahədə sahibkarlığın inkişafının durumu barədə bizə daha geniş təsəvvür yarada bilər.

**Cədvəl 6: Azərbaycan iqtisadiyyatında sahibkarlıq subyektlərinin payı, faizlə**

| Göstəricilər | 2018 | | | |
|---|---|---|---|---|
| | Cəmi sahibkarlıq | o cümlədən | | |
| | | mikro | kiçik | orta |
| Əlavə dəyər | 13,4 | 6,1 | 1,7 | 5,6 |
| - qeyri neft sektoru üzrə | 23,5 | 10,7 | 3,0 | 9,8 |
| İşçilərin sayı | 42,9 | 5,3 | 11,5 | 26,1 |
| - qeyri neft sektoru üzrə | 45,0 | 5,6 | 12,1 | 27,3 |
| Əsas kapitala investisiyalar | 41,8 | 17,0 | 6,3 | 18,5 |
| - qeyri neft sektoru üzrə | 65,2 | 26,5 | 9,8 | 28,8 |
| Yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərində payı | 20,9 | 8,5 | 2,7 | 9,6 |
| - qeyri neft-qaz sektoru üzrə | 37,7 | 15,4 | 4,9 | 17,4 |

**Mənbə:** Azərbaycanin statistik göstəriciləri 2019. Az.Resp. DSK-nın materialları

Azərbaycanda sahibkarlıq münasibətlərinin formalaşmasının hüquqi əsası ilk olaraq yeni mülkiyyət münasibətlərinin yaradılması istiqamətində Dövlət mülkiyyətinin özəlləşdirilməsi barədə Az.Resp. Qanunu (16 may 2000-ci il № 878-İQ) olmuşdur. Bu qanuna əsasən 1991-ci ilədək dövlətin mülkiyyətində olan əmlakın 70%-i bilavasitə xüsusi bölmənin sahibkarlarına əvəzsiz olaraq paylanmışdır ki, bu da ölkədə yeni növ bir iqtisadi subyektin – sahibkarlığın meydana gəlməsinin iqtisadi-hüquqi əsasını təşkil etdi. Xüsusi sahibkarlığın formalaşmasında hüquqi mexanizm kimi Az.Resp. Prezidentinin 10 avqust 2000-ci il 383 №-li Fərmanı ilə təsdiq edilmiş «Dövlət mülkiyyətinin özəlləşdirilməsinin II Dövlət Proqramının əvəzsiz rolu oldu. Mahiyyət etibarı ilə bu proqram yeni

mülkiyyət münasibətlərinə əsaslanan sahibkarlar ordusunun yaradılmasının hüquqi mexanizmi sayılır.

Bütün bunlara baxmayaraq təssüflə qyd etmək lazımdır ki, yer kürəsini öz cənginə alan Coronavirus pandemiyası çox sayda insanların həlak olması ilə yanaşı, nəticə etibarı ilə bütün dünya iqtisadiyyatına da 8 trln. dollardan artıq zərər vurmuşdur. Azərbaycan cəmiyyətinin də təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət bir sıra məcburi zəruri tədbirlər qəbul etmişdir və bunlardan biri də bütün ölkə üzrə karantin elan olunmasıdır. Təbii ki, bu da sahibkarlığa ciddi zərbə vurmuşdur.

Yəni Az.Resp. Prezidenti 19 mart 2020 il tarixli Sərəncamına əsasən, ölkədə yaranan iqtisadi problemlərin həlli istiqamətində və xüsusilə də milli iqtisadiyyatın sütunu sayılan milli sahibkarlığın böhrandan çıxmasına münasibətdə təsirli hüquqi mexanizm sayılan dövlət proqramlar hazırlanmışdır və artıq reallaşdırılmaqdadır. Bu proqramlar əsasən aşağıdakı istiqamətlər üzrə problemlərin həllinə istiqamətlənib: Müxtəlif sahibkarlıq sahələrdə çalışan 304 min nəfərdən artıq vətəndaşlarımıza məcburi məzuniyyətə çıxdıqlarına dəyən zərərin ödənilməsi barədə dövlət Proqramı; virus epidemiyasından ziyan çəkən sahələr üzrə sahibkarlara vergi güzəştləri, imtiyazları və tətillər üzrə Dövlət Proqramı; Mikro sahibkarlıq subyektlərinə müvafiq müddətdə sadələşdirilmiş vergi üzrə güzəştin verilməsi üzrə Dövlət Proqramı və s. Qəbul olunmuş bu proqramlar müxtəlif sosial yönümlü problemlərlə yanaşı, əsas məsələ kimi milli sahibkarlığın qorunması tədbirlərini nəzərdə tuturlar. Beləlikldə, dövlət tərəfindən sahibkarlığı və xüsusilə də daim olaraq dövlət qayğısına ehtiyacı olan kiçik və orta sahibkarlığı böhran vəziyyətindən çıxarmaq məqsədilə 2 mlrd. manatdan artıq maliyyə vəsaiti ayırmış və sahibkarlığın dəstəklənməsi üçün 10-dan artıq dövlət proqramı qəbul etmişdir.

Eyni zamanda, Az.Resp. Prezidenti 19 mart 2020 il tarixində COVİD-19 və onun iqtisadiyyata mənfi təsirlərinin aradan qaldırılması üzrə sərəncam imzalamışdır.

Yekunda qeyd edilməlidir ki, dövlətin tətbiq etdiyi hüquqi tənzimləmə mexanizmi istənilən vaxt xüsusi bölmədə sahibkarlığın inkişafına, onun səmərəli

fəaliyyətinə geniş imkanlar açacaqdır və bununla da milli iqtisadiyyatın dinamik inkişafı təmin ediləcəkdir. Bu baxımdan son illərdə investisiya proseslərində əsas kapitala yönəldilən yatırımların durumu maraq kəsb edir (bax: cədvəl 7).

**Cədvəl 7: Əsas kapitala yönəldilmiş investisiyalar**

| | Cəmi mln.manat | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | daxili | | xarici | |
| | | mln.manat | faizlə | mln.manat | faizlə |
| **2010** | 9905,7 | 6291,7 | 63,5 | 3614,0 | 36,5 |
| **2014** | 17618,6 | 12715,0 | 72,2 | 4903,6 | 27,8 |
| **2015** | 15957,0 | 9058,5 | 56,8 | 6898,5 | 43,2 |
| **2016** | 15772,8 | 6490,3 | 41,1 | 9282,5 | 58,9 |
| **2017** | 17430,3 | 8765,2 | 50,3 | 8665,1 | 49,7 |
| **2018** | 17238,2 | 12016,7 | 69,7 | 5221,5 | 30,3 |

**Mənbə:** Azərbaycanin statistik göstəriciləri 2019. Az.Resp. DSK-nın materialları

Cədvəldən aydın olur ki, 2018-ci ildə əsas kapitalın təkrar istehsalına yönəldilən investisiyalar 2010-cu ilə nisbətən təqribən 1,7 dəfə artmışdır və onların həcmi 17,23 mlrd. manat olmuşdur. Qoyulan vəsaitlərin 69,7%-i və ya 12,0 mlrd. manatı daxili investisiyaların payına düşmüşdür. Təbii ki, bu nəticələrin əldə edilməsi ölkədə investisiya proseslərinin düzgün hüquqi tənzimlənməsi hesabına olmuşdur.

Azərbaycanda milli iqtisadiyyatın davamlı və dinamik fəaliyyətinin inkişafında investisiyaların ən zəruri şərt olduğunu nəzərə alaraq dövlət bu sahədə investisiya siyasətini mükəmməl hüquqi tənzimləmə sisteminə əsaslanmaqla səmərəli şəkildə həyata keçirir.

Milli iqtisadiyyatda investisiya resurslarından geniş istifadə dövlətin investisiya siyasətində əsas istiqamət sayılırr. Son 18 ildə Azərbaycanda əsas kapitalın həcmi bu sahəyə sərmayə qoyuluşları hesabına çox sürətlə artmaqdadır. 2010-2018 illərdə əsas kapitalın inkişafına istiqamətlənən investisiyaların məbləği təqribən 2 dəfə artaraq 17,3 mlrd. manat təkil etmişdir.

Dövlətin investisiya siyasətinin hüquqi əsasını 13 yanvar 1995 tarixlı 952 №-li, 15 yanvar 1992 tarixlı 47 №-li, 14 iyul 1998 tarixli 523-İQ №-li Az.Resp.

Qanunları, bir sıra mütəmadi olaraq qəbul edərək icrası həyata keçirilən Məqsədli Dövlət Proqramları və Strateji Yol Xəritələri və s. rəsmi dövlət sənədləri təşkil edirlər və bu sənədlər sistemləşdirilmiş şəkildə milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi mexanizmini əks etdirirlər.

İnvestisiya siyasətinin reallaşdırılmasında əsas məqam investisiya resurslarının səfərbər edilərək ilk növbədə iqtisadiyyatın aparıcı bölmələrinə və xüsusilə də qeyri-neft sektorunun inkişafına istiqamətləndirilməsidir.

Həmçinin, qeyd etmək lazımdır ki, 2018-ci il üzrə dövlət büdcəsi barədə Az.Resp. Qanununa müvafiq olaraq dövlət büdcəsindən istiqamətlənən xərclərin təqribən 20%-ə qədəri əsaslı vəsait təyinatında sərf edilmişdir.

Bunun iqtisadi proseslərdə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində də güclü təsirini 2004-2018-ci illərdə milli iqtisadiyyata 250 mlrd. dollardan artıq investisiya resurslarının qoyulması nəticəsində qeyri-neft sektorunun inkişafında aydın görmək olar (bax Qrafik 1).

**Qrafik 1:Milli iqtisadiyyata investisiya qoyuluşları və qeyri-neft sektorunun məhsulunun artım dinamikası (2004-2018-ci illər)**




**Mənbə:** http://www.elibrary.az - Az.Resp. Prezidentinin kitabxanası.

Qrafikdən göründüyü kimi, son illərdə investisiya proseslərinin düzgün hüquqi tənzimlənməsi nəticə etibarı ilə milli iqtisadiyyatın qeyri-neft sektorunun sürətli inkişafına səbəb olmuşdur.

Son illərdə milli iqtisadiyyatın hüquqi tənzimlənməsi üzrə daha bir olduqca

vacib əhəmiyyət kəsb edən sənəd qəbul edilmişdir. Bu sənəd Az.Resp. Prezidenti tərəfindən 06.12.2016 il tarixdə imzalanan 1138№-li Fərmanla hüquqi qüvvəyə minmiş Az. Resp. iqtisadi perspektivi üzrə Strateji Yol Xəritəsidir.

SYX-də milli iqtisadiyyatın dayanıqlı inkişafına nail olunmasının başlıca hədəfləri kimi maliyyə sabitliyinin güclənməsi və davamlı pul-kredit tədbirlərin reallaşdırılması; mülkiyyət münüsibətlərinin daha da təkmilləşdirilməsi, insan kapitalının inkişaf etdirilməsi, sahibkarlıq üçün əlverişli şəraitin daha da genişləndirilməsi müəyyən edilmişdir.

SYX-də əks olunan prioritet istiqamətlər üzrə tədbirlər planınında 2020-ci ilədək olan müddət üzrə onların reallaşdırılmasının səmərəli tənzimləmə mexanizmini yaratması da təsbit olunub. Beləki, 2020-ci ilə qədərki dövrdə yerinə yetieilməsi üzrə tədbirlər planı ilk növbədə ölkədə milli iqtisadiyyatın maksimum dərəcədə neft-qaz amillərindən asılılı olmasını azaltmağı, milli iqtisadiyyatın maksimum dərəcədə diversifikasiyasını, onun beynəlxalq inteqrasiya proseslərinə qovuşmasını başlıca vəzifə olaraq qəbul etmişdir. Nəticə etibarı ilə, bu tədbirlərin kompleks şəkildə sistemlı yerinə yetirilməsi yalnız mükəmməl hüquqi tənzimləmə mexanizmi vasitəsilə mümkün sayılır.

SYX-də nəzərdə tutulan tədbirlər milli iqtisadiyyatın tənzimlənməsində dövlətin əlində güclü hüquqi silaha çevriləcəkdir.

# III FƏSİL. MİLLİ IQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

## 3.1. İqtisadi inkişafın tənzimlənməsinin hüquqi bazasının inkişaf etdirilməsi istiqamətləri

Müasir dünya iqtisadi hüquq elmində hüquqi tənzimləmə sistemi ilə iqtisadi tərəqqi arasında sıx asılılığın olması ümumbəşəri qəbul edilmiş bir reallıqdır. Hazırda həm iqtisad, həmdə hüquq tədqiqatçıların bu sahədə vahid mövqeyi formlaşmışdır ki, milli iqtisadiyyatın tənzimlənməsində hüquqla iqtisad elminin sintezi sayılan iqtisadi hüquq dövlətin əlində ən təsirli silah hesab edilməlidir. Keçən əsrin ortalarından başlayaraq iqtisadiyyatın tənzimlənməsində hüquqi vasitələrdən geniş istifadə edilməyə başlanmışdır və hazırda bu özünün pik nöqtəsinə çatmışdır. Beləki artıq iqtisadiyyatın hüquqi əsaslarda tənzimlənməsinin metodologiyasının formalaşdırılması istiqamətində bir sıra iqtisadi-instutsional məktəblərin yaratdığı nəzəriyyələr əksər dünya dövlətləri və samballı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş və müvafiq qaydada geniş masştabda tətbiq edilməkdədir. Bütün qabaqcıl dövlətlərdə hüquq inistitutlarının milli iqtisadiyyatların inkişafda rolu ətraflı tədqiq edilməyə başlanmışdır.

Bu baxımdan da müasir dövrdə milli iqtisadiyyatların dinamik və ardıcıl inkişafına geniş imkanlar açacaq normativ-hüquqi aktların qəbulu və bu sahədə səmərəli işləyən bir hüquqi sistemin formalaşdırılması hər bir dövlətin tənzimləyici fəaliyyətinin prioritet istiqamətinə çevrilmişdir.

AR Konstitusiyasınna əsasən Azərbaycanda tənzimləmə vasitəsi kimi, qanunlar istisna olunmaqla digər normativ-hüquqi aktları qəbul etmək üzrə səlahiyyətlər irarxiya üzrə mərkəzi dövlət hakimiyyət orqanlarına da verilib.

Beləliklə, ölkədə milli iqtisadiyyatın tənzimlənməsinin qanunvericilik sisteminin formalaşdırılması və səlahiyyətləri çərçivəsində müvafiq dövlət orqanları tərəfindən onun daha da inkişaf etdirilməsinin hüquqi əsasları Az.Resp. Konstitusiyası (15.11.1995) və Normativ hüquqi aktlar barədə Azərbaycan Respublikası Qanununun (21.12.2010) normalarına uyğun yaradılır.

Milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi əsaslarının inkişaf etdirilməsi prosesi ilk növbədə, zərurət yarandığı halda, müvafiq dövlət orqanı tərəfindən normativ hüquqi aktın layihəsinin işlənməsi barədə qərarın və planlarının qəbulu ilə başlanır. Qanunvericiliyə əsasən milli qanunvericiliyin inkişafı üzrə qanunların hazırlanması planının qəbulu AR-nın Milli Məclisi tərəfindən həyata keçirilir. Həmçinin müvafiq dövlət orqanlarının onların səlahiyyətləri çərçivəsində normativ-hüquqi sənədlərin qəbulu üzrə planlar hazırlanır və qəbul edilir.

Aparılan araşdırmalar göstərir ki, dövlət tərəfindən iqtisadityyatın milli qanunvericilik bazasının inkişaf etdirilməsi olduqca geniş profilli bir hüquqyaratma fəaliyyətidir. Beləki, müvafiq dövlət orqanları bir tərəfdən iqtisadiyyatın müxtəlif sahələr, sferalar və bölmələri üzrə o vaxtadək mövcud olmayan, lakin ciddi zərurət olan qanunlar və digər normativ-hüquqi aktlar qəbul edir. Digər tərəfdən isə artıq qüvvədə olan normativ-hüquqi aktların, xüsusilə də qanunların müəyyən maddələrini və hətta zəruri hallarda fəsillərinin onun mətnlərindən çıxarmış olur. Buna misal olaraq 1997-ci il tarixli Az.Resp. Gömrük Məcəlləsinin mətnindən zərurət yarandığı hallarda onlarca maddənin və fəslin çıxarılmasını göstərmək olar. Buraya onu da əlavə etmək lazımdır ki, hər hansı bir yeni qanun qəbul edilərkən mütləq onunla bilavasitə əlaqəli olan digər qanunların da bəzi maddə və müddəalarını koordinasiya etmək olduqca mühüm bir fəaliyyət sayılır. Həmçinin, qanunvericiliyn inkişafı prosesində yeni normativ-hüquqi aktın qəbuluna paralel olaraq onun yekun maddəsində anoloji məzmunlu və eyni mahiyyət daşıyan qanunun öz qüvvəsini itirməsi barədə müddəa verilməlidir. Bu onunla bağlıdır ki, qanunvericilik sistemində bir-birini təkrarlayan və hətta bir birinə ziddiyət təşkil edən qanunlar iqtisadi subyektlərin fəaliyyətində hərc-mərclik yarada bilməsin.

Milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi bazasının inkişafının mühüm bir istiqaməti artıq qüvvədə olan lakin, müasir bazar münasibətlərinin inkişaf tələblərinə cavab verməyən qanunların bir sıra maddələrinin və müddəalarının yeni şərtlərə uyğunlaşdırılması təcrübəsidir. Bu ondan irəli gəlir ki, istənilən hər-hansı bir yeni mətnli qanunun qəbulu olduqca çox vaxt və enerji tələb edən prosesdir.

Başqa sözlə hüquqyaradan dövlət orqanının rasional fəaliyyərinin sərfinin qarçısının alınması və həm də tənzimləmə prosesində çox qiymətli sayılan vaxt itkisinə yol verilməməsi üçün mövcud qanunun müvafiq müddəalarının dəyişən iqtisadi şəraitə uyğunlaşdırılması bu sahədə lazımsız prosedurların aradan qaldırılmasına və beləliklə də hüquqi bazanın operativ inkişafına imkan yaratmış olar. Buna misal olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsini (11.07.2000) misal göstərmək olar. Beləki bu məcəllənin işə düşdüyü 2001-ci ildən bəri mühüm müddəalar üzrə onun ilkin mətninə 1500-dən artıq dəyişiklik və əlavələr edilmişdir. Təkcə onu göstərmək olar ki, aparılan dəyişikliklər əsasında hüquqi şəxslərin mənfəətindən vergi dərəcələri həmin məcəllənin qəbul edidiyi vaxtda mövcud olan normaya əsasən 28 %-dən hazırda 20 %-ə düşmüşdür. İlk baxışdan eləcə də böyük fərq kimi görünməsə də bu dəyişiklik keçən dövr ərzində, nəticə etibarı ilə ölkədə milli sahibkarlığın və yekunda isə milli iqtisadiyyatın inkişafına olduqca güclü təkan vermişdir. Eyni zamanda, deyilənlərlə sübut olaraq, qeyd edək ki, bu sahədə atılan addımlardan biri də sahibkarlıq subyektlərinin fəaliyyətinin düzgün tənzimlənməsi istiqamətində onlara əlverişli maliyyə-investisiya mühiti yaratmaq üçün Vergi Məcəlləsinə dəyişikliklər olunmaaaaaası barədə Az.Resp. Qanunu (28.11.2003) qüvvəyə mindi. Bu səhədə müvafiq olaraq milli iqtisadiyyatımızın bütün sahə, bölmə və sferalarında, xüsusilə də qeyri-neft bölməsində sahibkarlıq və investisiya fəaliyyətinin stimullasdırılması məqsədilə 01.01.2004 tarixdən mənfəət vergi faizləri aşağı salınmış oldu.

Hazırda Azərbaycanda prinsipial əsasda yeni daha mütərəqqi iqtisadi sistemin, bazar iqtisadi sisteminin, formalaşdırılması və buna paralel olaraq onun səmərəli fəaliyyətini təmin edəcək mükəmməl hüquqi əsasın yaradılması prosesi gedir. Məhz bu baxımdan da qabaqcıl və daim təkmilləşdirilən hüquqi baza əsasında milli iqtisadiyyatın hüquqi tənzimlənməsi üzrə fəaliyyyətin səmərəli şəkildə idarə olunması dövlətin qarşısında duran ən vacib problemlərdən sayılır.

Araşdırmalar göstərir ki, milli iqtisadiyyatının hüquqi tənzimlənməsi prosesi Azərbaycanın müstəqilliyin ilk illərindən başlayaraq yeni iqtisadi sistemin formalaşdırılması istiqamətində dövlətin bir sıra mühüm normativ-hüquqi aktlar

qəbul etməsi ilə başlamışdır. Bu sahədə ilk olaraq milli iqtisadiyyat üçün həyati əhəmiyyət daşıyan Azərbaycanın müasir bank sisteminin, o cümlədən bu sistemin səmərəli idarə olunmasının qarantı sayılan dövlətin mərkəzi idarəetmə orqanı sayılan Mərkəzi Bankın yaradılması istiqamətində, sonradan isə bütün sahələr və sferalar üzrə müvafiq qanununlar və digər normativ-hüquqi aktlar qəbul edildi.

Beləliklə, 1992-ci ildən başlayaraq dövlətin aktiv şəkildə qanunyaratma fəaliyyəti nəticəsində ölkə iqtisadiyyatının milli maraqlara uyğun formada inkişaf etdirilməsinin hüquqi əsaslarının formalaşdırılması prosesi başlandı və o hazırda da dinamik şəkildə mütəmadi olaraq davam etdirilməkdədir.

Burada xüsusi bir halı diqqətdə saxlamaq lazımdır ki, milli iqtisadiyaatın inkişafının təmin edilməsi ilə bağlı yeni qanunların və diğər normativ-hüquqi aktların qəbulu əsasında hüquqi bazanın formalaşdırılması iqtisadiyyatın hüquqi əsasda tənzimlənməsi problemin həllinin yalnız bir istiqamətidir. Problemin həllinin ikinci mühüm bir istiqaməti isə artıq müəyyən bir müddətdə qüvvədə olan qanunların və digər normativ aktların sürətlə dəyişən iqtisadi mühitin tələblərinə uyğun olaraq mütəmadi əsasda təkmilləşdirilməsi sayılır.

Başqa sözlə, milli iqtisadiyyatının tənzimlənməsinin hüquqi bazası daimi olaraq həm kəmiyyət, həm də keyfiyyət dəyişikliklərinə uğramalıdır. Kəmiyyət dəyişiklikləri ilə əlaqədar söyləmək lazımdır ki, bu prosesin milli maraqlara uyğun aparılması məqsədilə qabaqcıl dünya ölkələrinin hüquqyaratma sahəsindəki mütərəqqi təcrübəsi göstərdiyi kimi, dövlətin hüquqi tənzimləmə fəaliyyətinin lazımi səviyyədə həyata keçirilməsi üçün ən azı 800-dən artıq iqtisadi təyinatlı qanunun mövcudluğunu zəruridir. Lakin, araşdırmalara əsasən söyləmək olar ki, hazırda Azərbaycanda iqtisadi sferada 450-dən artıq qanun qüvvədədir və hətta onlardan da az bir qismi hələ də tam qüvvə ilə işləmir. Bu o deməkdir ki, milli iqtisadiyyatın dayanaqlı və davamlı inkişafının təmin edilməsi istiqamətində milli qanunvericilik sistemin formalaşdırılması fəal və ardıcıl şəkildə davam etdirilməlidir. Yalnız belə olan halda milli iqtisadiyyatın inkişafının səmərəli tənzimlənməsi öz müsbət nəticələrini verə bilər.

Beləliklə, hazırda ən mühüm problemlərdən biri mütəmadi olaraq iqtisadi sferada mövcud hüquqi bazada olan boşluqları yeni normativ-hüquqi aktların intensiv şəkildə qəbul edilməsi yolu ilə doldurmaqla etibarlı və mükəmməl hüquqi tənzimləmə mexanizmin normal fəaliyyətini təmin etməkdir.

Yuxarıda qeyd olunanları əsas götürməklə qətiyyətlə qeyd edilməlidir ki, müasir bazar münasibətləri şəraitində dövlətin iqtisadi siyasətinin səmərəli həyata keçirilməsi mükəmməl şəkildə formalaşdırılmış hüquqi tənzimləmə mexanizmi vasitəsilə mümkündür. Belə bir mexanizm isə yalnız geniş spektorlu bütün iqtisadi prosesləri əhatə edən yeni qanunlar və digər normativ-hüquqi aktların qəbulu əsasında formalaşdırıla bilər.

Azərbaycanda iqtisadi sferada hüquqyaratma sahəsində fəaliyyətin araşdırmalarına əsasən söyləmək olar ki, son illərdə bu sahədə dövlət tərəfindən ciddi addımlar atılmışdır və hazırda da bu iş davam etdirilməkdədir. Beləki, son 10 ildə sahibkarlıq, investisiyalar, monetar, fiskal, büdcə, vergilər, aqrar, nəqliyyat, informasiya, gömrük, sosial və s. sahələrin tənzimlənməsi üzrə, həmçinin səmərəli işləyən bazar mexanizminin, normal rəqabət mühitinin, mülkiyyət münasibətlərinin, bazar infrastrukturunun formalaşdırılması və səmərəli fəaliyyətinin təşkili üzrə yüzlərlə qanunlar qəbul edilmişdir və qüvvədə olanları isə dəyişən iqtisadi şəraitin tələblərinə uyğun olaraq fasiləsiz olaraq daha da təkmilləşdirilməkdədir.

Azərbaycanda milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi əsasının araşdırılması göstərir ki, müstəqillik əldə etdikdən sonra son 15 il ərzində qəbul edilmiş bir sıra yeni, dahə mükəmməl mətnli qanunlar xüsusi qeyd edilməlidir.

Son illərdə milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi bazasının genişləndirilməsində həm də Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanlarıha əsasən hüquqi qüvvəyə minmiş Milli İqtisadiyyatın Perspektivləri üzrə SYX-si (6 dekabr 2016 tarixli Fərman) və «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərə sosial-iqtisadi inkişafının Dövlət Proqramının (29 yanvar 2019 tarixli Fərman) xüsusi rolu olmuşdur.

Hazırda hər iki sənəd ölkə iqtisadiyyatının inkişaf etdiriməsində dövlətin əlində güclü hüquqi tənzimləyici silaha çevrilmişdir və onların icrası müvafiq dövlət orqanları tərəfindən ardıcıl və sistemli şəkildə həyata keçirilməkdədir.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan dövləti tərəfindən hüquqyaratma sahəsində aktiv fəaliyyət aparılmasına baxmayaraq, milli iqtisadiyyatın bəzi sahə və sferaları üzrə yeni qanunların və ya məcəllələrin qəbul edilməsinə ciddi zərurət yaranmışdır. Beləki, iqtisadiyyatın bazar mexanizmi əsasında inkişafında həlledici rol oynayan rəqabət proseslərinin səmərəli tənzimlənməsində yaranan problemlər qüvvədə olan müvafiq qanunla səmərəli tənzimlənə bilmir və problemin operativ həlli yeni sənəd – Az.Resp. Rəqabət Məcəlləsini təcili qəbul etməyi şərtləndirir. Ölkədə investisiya proseslərinin sürətləndirilməsi üçün bu sahədə işləyən, lakin müasir tələblərə kifayət səviyyədə cavab verməyən iki qanun əvəzinə yeni Az.Resp. İnvestisiya Məcəlləsinə ciddi ehtiyac yaranmışdır.

Həmcinin, hazırda müasir qabaqcıl dünya təcrübəsini də nəzərə almaqla milli iqtisadiyyatın inkişafında birjaların rolunun yüksəldilməsi üçün bu problemi kompleks şəkildə həll etmək imkanına malik Az.Resp. birja fəaliyyəti barədə Qanununun da qəbuluna ciddi zərurət yaranmışdır.

Mövcud hüquqi bazanın inkişaf etdirilməsi ilə eyni zamanda onların hüquqi qüvvəsinə görə əhatə dairəsinə görə, müddətinə və s. əlamətlər üzrə təsnifləşdirilməsində dövlətin başlıca məqsədi milli iqtisadiyyatın davamlı və dinamik inkişafının mükəmməl və səmərəli işləyən hüquqi bazasının formalaşdırılmasıdır. Başqa sözlə, müasir qloballaşma şəraitində milli maraqların tam təmin edilməsinə münasibətdə müvafiq hüquqyaradan dövlət orqanları ölkənin iqtisadi təhlükəsizliyinin təminatı rolunu oynayacaq və milli iqtisadiyyatın bütün sahə, sfera və bölmələrini əhatə edən kifayət sayda qanunlar və digər normativ-hüquqi aktların qəbul edilməsi üzrə bütün zəruri tədbirləri görməlidir.

Milli iqtisadiyyatın dinamik inkişafının əsas amili sayılan bazar mexanizminin fəaliyyətinə normal şərait yaradılmasında rəqabət və antiinhisar qanunvericiliyinin formalaşdırılması həyati əhəmiyyətə malikdir. Azərbaycan

dövləti bu problemlə bağlı bir sıra qanunlar qəbul etmişdir. Hazırda müvafiq dövlət orqanları bu sahədə daha mükəmməl bir normativ-hüquqi qəbulu ilə başlı fəaliyyət aparırlar.

Azərbaycanda iqtisadi subyektlərin bazarda hakim mövqe tutmaları və bundan qeyri-qanuni bəhrələnməyə mane olmaq üçün və ya normal rəqabət mühitinin korlanmasının qarşısını almaq məqsədilə xüsusi Dövlət Xidməti təsis olunmuşdur və hazırda fəaliyyət aparır. Bu xidmət əsas işi inhisahçı mövqedə duran iqtisadi subyektlərin birləşdirilməsinə və qovuşdurulmasına (həmin subyektlərin bazardakı xüsusi çəkisi 35 faizdən artıq təşkil eməklə nəticələnirsə) mane olmaqdır.

Milli iqtisadiyyatın inkişafının hüquqi tənzimlənməsində önəmli fəaliyyətlərdən biri də pul-kredit münasibətlərinin reallaşdırılmasının hüquqi əsasının formalaşdırılmasıdır. Başqa sözlə, ölkədə bank sisteminin fəaliyyətinin iqtisadi maraqlara uyğun olaraq əlverişli hüquqi zəmin əsasında təşkil etməklə dövlətin monetar siyasətinin uğurla həyata keçirilməsinin işlək hüquqi mexanizminin yaradılması və ondan maksimum səmərəli istifadədir.

Araşdırmalara əsasən söyləmək olar ki, hazırda bank sferasının məqsədyönlü tənzimlənməsi istiqamətində də bir sıra mühüm qanunlar və digər normativ hüquqi aktlar fəaliyyət göstərir. Bu qanunların əsasında formalaşdırılan hüquqi tənzimləmə mexanizmi vasitəsi ilə müəssisələrlə kommersiya bankları, həmçinin, kommesiya bankları ilə Mərkəzi Bank arasında yüksək səviyyəli bank hüquq münasibətlərinin tənzimlənməsinə geniş imkanlar açılmış olur. Beləliklə, 2004-cü ildə yeni redaksiyada işlənmiş Banklar barədə ARQ və Mərkəzi Bank barədə ARQ qəbul edildi və monetar siyasətin reallaşdırılmasında samballı hüquqi əsas rolunu oynayırlar. Az.Resp. bu qanunları mahiyyət etibarı Azərbaycanda qabaqcıl dünya təcrübəsinə əsaslanan iki pilləli bank sisteminin qurulmasının hüquqi əsasını qoydu və Mərkəzi Bankın bir mərkəzi dövlət orqanı kimi pul-kredit siyasətinin reallaşdırılmasında tənzimləyici mövqeyini dəqiqləşdirdi.

Qiymətli kağızlar bazarında fəaliyyət göstərən subyektlərin fəaliyyətinin hüquqi bazasını Qiymətli kağızlarbarədə (1998) Az.Resp. Qanunu təşkil edir. Bu

qanun müasir bazar iqtisadiyyatının inkişafında aparıcı faktor sayılan qiymətli kağızların qeydiyyatı, buraxılış və tədavül qayda və üsullarını müəyyənləşdirir. Qiymətli kağızlar bazar subyektlərinin növlərini və onların hüquqi statusunu müəyyən edən bu qanun eyni zamanda ölkənin fond birjasının, onun formalaşdırılması və fəaliyyət qaydalarını da müəyyənləşdirir. Bu qanun əsasında Fond birjası qapalı səhmdar cəmiyyəi təşkilati-hüquqi formada yaradılmalıdır. Qiymətli kağızlar barədə ARQ tələblərinin pozulmasına görə qanunvericilə müvafiq olaraq müvafiq məsuliyyət daşınır.

Sahibkarlıq fəaliyyətinin təşkilatı-iqtisadi forması olan müəssisələrə dövlət tərəfindən köməkliyin artırılması istiqamətində bir şox qanunlar və digər sənədlər qüvvəyə mindirilmişdir. Bu rəsmi dövlət sənədlərindən Az.Resp. Prezidentinin 27.08.2002 tarixində imzalanan 779 saylı, 10.09.2002 tarixində imzaladığı 783 saylı, 04.04.2002 tarixində imzaladığı 684 saylı, Sahibkarlar Şurasının yaradılması haqqında 27.08.2002 tarixində imzaladığı 778 saylı, həmçinin, Az.Resp.-da sahibkarlıq fəaliyyətinin inkişafı üzrə Dövlət Proqramının təsdiqi barədə 17.09.2002 il 753 saylı fərmanlarını göstərmək olar.

Həmçinin, Azərbaycan Respublikasında Prezidentinin 01 avqust 2018 il tarixli müvafiq Fərmanını əsas tutaraq dövlətin sahibkarlara köməkliyini qeyri neft bölməsinin dinamik inkişaf etdirilməsi istiqamətində SKMF əsasında Az.Resp. İqtisadiyyat Nazirliyinin nəzdində Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır.

Ölkənin iqtisadi inkişafında dövlət büdcəsinin əvəzsiz rolu vardır. Büdcə sistemi barədə Az.Resp. Qanunu (2002) bu sahədə fəaliyyətin həyata keçirilməsində ciddi hüquqi əsas sayılır. Büdcə sistemi barədə qanun ölkədə büdcə proseslərininə nəzarət, həmçinin büdcə sisteminin elementləri arasında, büdcədən kənar fondların formalaşdırılmasının hüquqi normalarını müəyyənləşdirmişdir.

Lakin, aparılan araşdırmalar göstərir ki, hüquqyaratma sahəsində son illərdə dövlətin apardığı geniş və səmərəli fəaliyyətə baxmayaraq, Azərbaycanda milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi bazasının tam formalaşdırılması başa çatmamışdır. Bu səbəbdən də hazırda milli iqtisadiyyatın davamlı və dinamik inkişafının səmərəli tənzimlənməsinin hüquqi aspektləri milli maraqlara uyğun

nəzərə alınması sahəsində müəyyən çətinliklər mövcuddur. Təbii ki, bu ilk növbədə qanunvericilik sistemində hüquqi boşluqların hələ də qalması şəklində özünü büruzə verir.

Hüquqyaratma sahəsində elmi təhlil aparmaqla belə qənatə gəlmək olar ki, milli iqtisadiyyat maksimum dərəcədə səmərəli tənzimlənmək üçün Azərbaycan hüquqi bazanın inkişaf etdirilməsi bir sıra istiqamətlər üzrə aparılmalıdır. Buraya ilk növbədə qəbul edilən qanunların və digər normativ-hüquqi sənədlərin geniş ictimayyəti, ilk növbədə iqtisadi subyektləri cəlb etməklə qəbul edilməsi, qanunlar üzrə dövlət ekspertizasının sürətli və professional şəkildə aparılması, onların icrasının nəticələrinin müzakirəsinin şəffaf olmaqla xalqın iştirakı ilə aparılması, normativ-hüquqi aktların icrasının hesabatını mütəmadi şəkildə aparılması, yeni qanunların qəbulunda qabaqcıl dünya təcrübəsindən, qanunların detallaşdırılmış şəkildə işlənməsindən istifadə edilməsi.

## 3.2. Milli iqtisadiyyatın hüquqi tənzimləmə mexanizminin fəaliyyətinin yüksəldilməsi yolları

Aparılan araşdırmalara əsasən belə bir qənatə gəlmək olar ki, milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi bazasının genişləddirilməsi ilə paralel olaraq bu baza əsasında formalaşdırılan hüquqi tənzimləmə mexanizminin mütəmadi olaraq və fasiləsiz şəkildə təkmilləşdirilməsi də dövlətin operativ həll etməli olduğu olduqca vacib bir məsələdir.

Burada bir neçə istiqamətdə fəaliyyət aparılmalıdır. Beləki, həlli ilk növbədə tələb olunan problemlərdən ən vacibi mövcud hüquqi bazanın inkişaf etdirilməsi ilə eyni zamanda səmərəli işləyən hüquqi mexanizmin formalaşdırılması üçün qəbul edilən bütün normativ-hüquqi aktların müəyyən irarxiya və ardıcıllıqla, hüquiq qüvvəsinə görə, əhatə dairəsinə görə, müddətinə və s. əlamətlər üzrə təsnifləşdirilməsi olduqca böyük əhəmiyyət daşıyır. Təbii ki, burada dövlətin başlıca məqsədi milli iqtisadiyyatın davamlı və dinamik inkişafının mükəmməl və səmərəli işləyən hüquqi mexanizminin formalaşdırılması olmalıdır.

Həmçinin, mahiyyət etibarı ilə, hüquqi tənzimləmə mexanizmi milli iqtisadiyyatın obyektiv olaraq olduqca mürəkkəb təşkilati-iqtisadi struktura malik olması və onun bir çox istiqamətdə bölmə, sfera və problemlərinin mövcud olması ilə əlaqədar, ümumilikdə vahid bir sistem təşkil etməsi ilə yanaşı adekvat quruluş təşkil edir. Belə bir hal hüquqi tənzimləmə mexanizminin ayrı-ayrı elementlərinin iqtisadiyyatın müxtəlif sahə və bölmələri üzrə tam müstəqil şəkildə fəaliyyət göstərməsinə baxmayaraq onların dövlət tərəfindən bir-biri ilə sıx əlaqələndirilmiş formada vahid sistem halında milli iqtisadiyyatın tənzimlənməsində tətbiq olunmasını şərtləndirir.

Müasir dövrdə milli iqtisadiyyatın dinamik inkişafının əsas amili sayılan bazar mexanizminin fəaliyyətinə normal şərait yaradılmasında rəqabət və antiinhisar qanunvericiliyinin formalaşdırılması həyati əhəmiyyətə malikdir. Məhz bu səbəbdən müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan dövləti tərəfindən bu problemin həlli ilə bağlı Antiinhisar fəaliyyəti barədə ARQ, Haqsız rəqabət barədə ARQ, Təbii inhisarlar barədə ARQ ilk növbədə nəzərdən keçirilərək Milli Məclis tərəfindən qəbul edilmişdir. Bu qanunların əsasında da rəqabət və inhisarçılıq problemlərinin tənzimlənməsinin hüquqi mexanizmi formalaşdırılmış və hazırda da fəaliyyətdədir. Bu mexanizm adı çəkilən qanunların normalarının, həmçinin də onların icrasının təşkili ilə əlaqədar qəbul edilmış Az.Resp. Prezidenti və Nazirlər Kabineti tərəfindən imzalanmış fərmanlar, qərarlar və sərəncamlar, əlaqədar nazirliklərin qərarları, əsasnamələri, sərəncamlarının müəyyən irarxiya və sistemləşdirilmiş düzülüşü əsasında formalaşdırılmışdır. Bu mexanizmin tətbiqinin yüksək səviyyədə təşkili məqsədilə İqtisadiyyat Nazirliyi nəzdində Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti təsis olunmuşdur və hazırda milli bazarda normal rəqabət mühitinin yaradılması və inhisarçılığa qarşı tədbirlərin yerinə yetirilməsi üzrə fəaliyyət aparır.

Aparılan təhlil söyləməyə imkan verir ki, hazırki şəraitdə inhisarçılığın təzahürünün və müvafiq olaraq normal rəqabət mühitinin kifayət dərəcədə təmin edilməməsi qənaətinə gəlinsin və bunun da başlıca səbəbi kimi səmərəli işləyən hüquqi tənzimləmə mexanizminin olmamasını saya bilək. Belə bir şəraitin

yaranmasının əsas səbəbi isə müasir şəraitdə qabaqcıl dünya ölkələrində artıq sınaqdan çıxmış samballı hüquqi bazanın olmamasıdır. Bu durumu nəzərə alaraq hazırda müvafiq dövlət orqanlar bu sahədə daha mükəmməl sənədin - Az.Resp. Rəqabət Məcəlləsinin qəbulu ilə başlı fəaliyyətə başlamışlar.

Eyni zamanda belə hesab edirik ki, artıq 20 ildən artıq fəaliyyət göstərən İqtisadiyyat Nazirliyi nəzdində Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin daha səmərəli fəaliyyət göstərən və geniş hüquqlara və səlahiyyətlərə malik mərkəzi dövlət orqanı ilə əvəz olunması böyük aktuallıq kəsb edir.

Eyni zamanda, milli iqtisadiyyatın tənzimlənməsində olduqca önəmli rolu olan Sahibkarlıq fəaliyyəti barədə Az.Resp. Qanununun (1992) artıq öz vəzifələrinin öhdəsindən tam gələ bilmir və buna səbəb keçən 30 il ərzində bazar iqtisadiyyatının və müvafiq olaraq sahibkarlıq münasibətlərinin də çox sürətlə inkişaf etməsidir. Yəni, bazar münasibətlərinin yenicə yarandığı dövrdə dövlətin yaratdığı yeni hüquqi əsas hazırda yeni iqtisadi mühitdə bazarda rəqabət mexanizminin azad fəaliyyətinə şərait yaratmalıdır ki, bu da nəticə etibarı ilə milli iqtisadiyyatın dinamik inkişafına əlverişli imkanlar açmalıdır. Bu baxımdan da ölkədə sahibkarlıq mühitinin dünya standartlarına müvafiq tənzimlənməsi məqsədilə bu sahədə hüquqi əsasın daha da təkmilləşdirilməsinə və ya prinsipial yeni mətndə geniş əhatəli bir məcəllə qəbul edilməsinə zərurət vardır.

Milli iqtisadiyyatın inkişafının hüquqi tənzimlənməsində önəmli fəaliyyətlərdən biri də maliyyə-pul-kredit münasibətlərinin reallaşdırılmasının samballı hüquqi əsasının formalaşdırılmasıdır. Başqa sözlə, ölkədə bank sisteminin fəaliyyətinin iqtisadi maraqlara uyğn olaraq əlverişli hüquqi zəmin əsasında tənzimləməklə dövlətin fiskal-monetar siyasətinin uğurla həyata keçirilməsinin işlək hüquqi mexanizmini yaradacaq və onu daha da təkmilləşdirməklə bu mexanizmdən maksimum səmərəli istifadə edəcəkdir.

Hazırda qiymətli kağızlar bazarında fəaliyyət göstərən subyektlərin fəaliyyətinin hüquqi bazasını Qiymətli kağızlar barədə Az.Resp. Qanunu (1998) təşkil edir. Fikirimizcə müasir dövrdə müasir bazar iqtisadiyyatının inkişafında

aparıcı faktor sayılan qiymətli kağızların qeydiyyatı, buraxılış və tədavül qayda və üsullarının müəyyənləşdirilməsi, qiymətli kağızlar bazar subyektlərinin növlərini və onların hüquqi statusunun daha da genişləndirilməsini, ölkənin fond birjasının tam şəkildə formalaşdırılmasını səmərəli şəkildə təmin etmək üçün bu qanunun daha işlək hala gətirilməli və bu əsasda da daha mükəmməl hüquqi tənzimləmə mexanizmi yaradılmalıdır.

Müasir dövrdə iqtisadiyyatın kompleks şəkildə tənzimlənməsinin ən samballı hüquqi mexanizmi Az.Resp. dövlət başçısının 16.03.2016 1897 №-li milli iqtisadiyyatın inkişafı üzrə SYX icrası ilə bağlı məsələlər barədə Sərəncamına uyğun qaydada ölkə iqtisadiyyatının bütün bölmə, sahə və sferalarının inkişafı üzrə SYX reallaşdırılır və burada başlıca hədəf milli iqtisadiyyatın səmərəli inkişafının təmin edilməsidir.

Beləliklə də bu SYX-nin təsdiqləyən Az.Resp. Prezidentinin 06.12.2016 tarixində imzaladığı Fərmanla milli iqtisadiyyatın inkişafı üzrə tədbirlər hüquqi qüvvəyə və onların reallaşdırılmasının hüquqi mexanizmini yaradılıb. Mahiyyət rtibarı ilə bu SYX milli iqtisadiyyatın 2020 ildə, 2025-ciilədək perspektivə və ondan sonrakı dövrə dinamik inkişaf istiqamətlərinin müəyyənləşdirib.

Qeyd olunanları ümumiləşdirməklə göstərmək olar ki, milli iqtisadiyyatın davamlı və dinamik inkişafının etibarlı əsasda təmin edilməsinin şərtlərinin ən əsası səmərəli işləyən mükəmməl hüquqi tənzimləmə mexanizminin yaradılması və başlıca olaraq bu mexanizmi mütəmadi olaraq fasiləsiz şəkildə dəyişən iqtisadi mühitə uyğun təkmilləşdirməkdir.

Beləliklə də, Az.Resp. Prezidenti tərəfindən imzalanmış müvafiq SYX-nin əsas hədəfi Azərbaycan iqtisadiyyatı və onun aparıcı sektorlarının inkişafının strateji yol xəritəsi hazırlanıbdır. Burada əsas hədəf ölkədə milli iqtisadiyyatın güclü tərəqqisi bazasında xalqın sosial durumunu ardıcıl yüksəltməkdir. Bunu nəzərə almaqla Az.Resp. Prezidentinin 06.12.2016 tarixli Fərmanına əsasən qəbul edilən SYX davamli iqtisadi inkişaf tədbirlərinin reallaşdırılmasının hüquqi mexanizmi müəyyənləşdirildi.

Strateji Yol Xəritəsində iqtisadiyyatın dinamik inkişafına aşağıdakı 4 mühüm strateji əhəmiyyətli məqsədə çatmaqla nail olmaq mümkündür: maliyyə stabilliyinin təmin edilməsi; mülkiyyət münasibətlərinin tam formalaşması ilə bağlı yekun islahatlar aparılması; insan kapitalını daha da inkişaf olunması; sahibkarlıq üçün zəruri şəraitin yaradılması.

Azərbaycanın müstəqilliyinin ilk illərindən dövlət mülkiyyətinin özəlləşdirilməsi üzrə dövlət proqramı həyata keçirilməklə özəl bölmədə sahibkarlıq fəaliyyətinin sürətlə inkişaf etdirilməsinə güclü təkan vermişdir. Nəticə etibarı ilə bununla da milli iqtisadiyyata xüsusi bölmədən investisiyanın həcmlərinin artmasına imkan yaradacaqdır.

Milli iqtisadiyyata investisiya cəlbediciliyinin artırılmasının başlıca amili sahibkarlıq mühitinin yaxşılaşdırılmasıdır. Strateji hədəflərdən biri olan əlverişli sahibkarlıq şəraitinin yaxşılaşması ölkəyə investorların inamlarının artmasına səbəb olacaqdır.

SYX konkret olaraq milli iqtisadiyyatın kompleks inkişafının təmin edilməsi üzrə tədbirlər sistemini əks etdirir. Bu sənəddə qısamüddətli, ortamüddətli və uzunmüddətli vaxt ərzində milli iqtisadiyyatın inkişaf sxemini ifadə edir. SYX-də əks olunan əsasən 2020-ci ilədək olan zaman çərçivəsində reallaşdırılacaq tədbirləri, həmçinin 2025-ci il üçün və sonrakı perspektiv dövrə uzunmüddətli inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.

Göründüyü kimi, SYX-də əks olunan iqtisadiyyatın konkret bölmə və sferalarının lokal yol sxemlərinin icrası, nəticə etibarı ilə ümumilikdə milli iqtisadiyyatın prinsipial olaraq daha yüksək inkişaf mərhələsinə keşirilməsinin hüquqi təminatçısı kimi şıxış edir.

Müasir bazar iqtisadi sisteminin səmərəli fəaliyyətinə imkan verən hüquqi əsasların formalaşmasının təmin edilməsi dövlətin vacib funksiyalarından biri sayılır. Bu əsasda da dövlət nəinki bazar iqtisadi sistemin təşkilatçısına, həmçinin onun səmərəli fəaliyyətinin fəal iştirakçısına çevrilir. Bununla əlaqədar olaraq dövlət vahid mükəmməl hüquqi baza formalaşdırmalı, regional inkişafın tənzimlənməsinin vahid normativ-qanunverici əsaslarını təşkil etməlidir.

Hazırda regional inkişafın səmərəli tənzimlənməsinin hüquqi əsası, bir qayda olaraq, bu sahədə qəbul olunmuş qanunlar, prezident fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamlarından, müvafiq dövlət orqanının qəbul etdiyi normativ aktlardan ibarət olur.

Təhlil göstərir ki, regional inkişafı tənzimləyəcək qanunların belə qruplaşdırılması dövlətin regional siyasətinin reallaşdırılması və hüquqi aspektdən mövcud məsələlərin həllində olan mürəkkəbliyi və anlaşılmazlığı aradan qaldırmağa, bu sahədə dövlətin fəaliyyətini sistemləşdirməyə imkan verməlidir. Nəticə etibarı ilə, qeyd etmək lazımdır ki, hüquqyaratma prosesinə belə yanaşma Azərbaycanda regionlarda iqtisadiyyatın kompleks inkişafına əlverişli zəmin yaradır ki, bu da sonda mövcud problemlərin səmərəli həllini təmin edəcəkdir.

Regional inkişafın tənzimlənməsinin hüquqi bazasının digər bir qolunu isə məqsədli dövlət proqramları, yəni regional kompleks inkişaf proqramları təşkil edir. Deyilənləri yekunlaşdırmaqla qeyd etmək lazımdır ki, son illərdə Azərbaycan regionlarının neft amilindən maksimum sərbəst olan iqtisadi inkişafının təmin edilməsi istiqamətində 4 Məqsədli Dövlət proqramı qəbul edilib.

Burada artıq icrası başa çatmış və regional inkişafda önəmlı rol oynamış 3 Dövlət Proqramını xüsusi qeyd eymək olar. Hər bir proqram Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə hüquqi status almışdır və dövlətin bu işə məsul olan orqanları tərəfindən icra olunmuşdur. Təbii ki, bu proqramlarda əsasən qeyri-neft sahələrin inkişaf etdirilməsini nəzərdə tutan tədbirlərin yerinə yetirilməsi regional problemlərin tam həllinə nail olmamışdır və artıq davam olaraq yeni proqram qəbul olunub və o icradadır. Lakin bu proqramların icrası bir çox regional iqtisadi problemləri həll etmişdir.

Milli iqtisadiyyarın regional kəsikdə inkişafını daha da sürətləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanan 14.04.2009l tarixində 80 №-li Fərmanla təsdiqlənən «Az.Resp. bölgələrinin 2009-2013 illərə inkişafı üzrə Dövlət Proqramı»ın həyata keçirilməsi regionların sosial-iqtisadi inkişafında yeni bir mərhələ təşkil etmiş oldu.

Beləki, Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər dövründə ÜDMnin həcmi 3,3 dfəfə, xüsusilə də qeyri-neft bölməsi üzrə 2,8 dəfə, sənayenin sahələri üzrə 2,6 dəfə, aqrar bölmədə 1,7 dəfə artım baş vermişdir. Göstərilən dövr ərzində Azərbaycanda 100 mindən çox yeni müəssisələr işə salınmışdır.

Beləliklə, inamla qeyd etmək olar ki, regionların sosial-iqtisadi inkişafını tam təmin etmək istiqamətində ardıcıl olaraq 3 məqsədli dövlət proqramının qəbul edilərək icra olunması (2004-2008, 2009-2013 və 2014-2018 illər) milli iqtisadiyyatın inkişafında xüsusi rol oynamışdır.

Hazırda, qeyd olunduğu kimi, regionların davamlı inkişafının təmin etdirilməsi məqsədilə 29 yanvar 2019-cu ul tarixində Az.Resp. Prezidentinin müvafiq fərmanı ilə 2019-2023-cü illərə nəzərdə tutulan yeni regional inkişaf proqramı icra olunmaqdadır.

Bütün bunlara baxmayaraq, milli iqtisadi inkişafda göstərilən müsbət tendensiyalarla yanaşı, ölkədə, o cümlədən regionlarda bəzi məsələlərin həlli aktual olaraq qalır.

Beləki, respublikamızda son illərdə iqtisadi inkişafın hüquqi bazasının və hüquqi tənzimləmə mexanizimlərinin formalaşması üzrə çox işlər görülüb. Lakin, bunu regional iqtisadiyyatın tənzimlənməsi, bunun üçün normativ-hüquqi baza yaradılması haqqında demək olmaz. Respublikada iqtisadiyyatın gələcək dirçəliş və səmərəli inkişafının ən mühüm şərtlərindən biri regionlara, regional idarəetmə və tənzimləmə məsələlərinə münasibətin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmasıdır.

Regionların dinamik inkişaf etdirilməsində Az.Resp. Pezidenti tərəfindən imzalanan 29.02.2012 tarixli Fərmanına əsasən qüvvəyə minmiş «Azərbaycan 2020: gələcəyə baxiş» İnkişaf konsepsiyası da mühüm hüquqi əsas hesab oluna bilər. Bu konsepsiyada əsas prioritetlərdən biri kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının mühüm istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə ardıcıl tənzimləyici fəaliyyətin həyata keçirilməsidir.

Milli iqtisadiyyatın mühüm bölməsi sayılan maliyyə sferasında proseslərin hüquqi tənzimləmə mexanizminin daha da təkmilləşdirilməsi məqsədilə Az.Resp.

Prezidenti tərəfindən imzalanan Fərmanla (03.02.2016 № 760) ilə nizamnamə fondu 5 mln. manat olan Maliyyə Bazarına Nəzarət Palatası yaradıldı.

Araşdırmalar göstərir ki, ölkədə son 2 ildə iqtisadi proseslər çox sürətlə inkişaf etmişdir və bununla əlaqədar olaraq bir çox iqtisadi sahələr üzrə, xüsusilə də maliyyə sferasında, islahatlar həyata keçirilmişdir. Təbii ki bu islahatların həyata keçirilməsi üçün müvafiq hüqui əsasın formalaşdırılması olduqca vacib şərtdir. Bu baxımdan da maliyyə bazarlarının tənzimlənməsinin hüquqi mexanizminin də təkmilləşdirilməsinə ciddi zərurət yaranmış oldu. Deyilənlərlə əlaqədar Az.Resp. Prezidenti tərəfindən maliyyə bazarında tənzimləmə sisteminin daha da mükəmməldirilməsi istiqamətində 28.11.2019-cu il tarixli Sərəncam imzalandı. Bu sənədə əsasən, MBNP ləğv edilərək onun qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri (maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, bu sahədə tənzimləmənin aparılmasın, bazarda investorlar və digər iqtisadi subyektlərin hüquqlarının qorunması üzrə vəzifələri, hüquqları və s. Az.Resp. Mərkəzi Bankına verildi.

Aparlan tədqiqat bir daha sübut edir ki, milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi mexanizminin təkmilləşdirilməsi nəticə etibarı ilə dövlətə özünün başlıca funksiyasının, iqtisadiyyatın möhkəm təməllər əsasında davamlı və səmərəli inkişaf etdirməsi üzrə vəzifələrinin uğurla həll etməsinin başlıca amili sayılır.

Beləliklə, araşdırmalara əsasən belə inamlı nəticəyə gəlmək olar ki, milli iqtisadiyyatın davamlı və dinamik inkişafı dövlətin formalaşdıracağı və səmərəli istifadə edə biləcəyi hüquqi mexanizmdən, ən başlıcası isə müvafiq dövlət orqanları tərəfindən öz səlahiyyətləri çərçivəsində daimi olaraq mütəmadi şəkildə bu mexanizmi təkmilləşdirməsindən əsaslı şəkildə asılıdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin yazılma prosesimdə müasir iqtisadi-hüquqi təmayüllü nəzəri baxışlardan, elmi ədəbiyyatlərdan və rəsmi dövlət sənədlərindən istifadə etməklə geniş elmi araşdırmalar aparılmış və bunun da nəticəsində praktiki əhımiyyəti olan məntiqi nəticələr əldə edilmişdir və onların mahiyyətinə uyğun əməli təkliflər verilmişdir.

Aparılan tədqiqatın yekunu üzrə hazırlanmış nəticə və təkliflər aşağıdakılardır:

1. Milli iqtisadiyyatın davamlı və dinamik inkişafının təmin edilməsinin ən faydalı yolu dövlətin müvafiq hüquqyaradan orqanları tərfindən fasiləsiz olaraq iqtisadiyyatın bütün sahə, sfera, bölmələrini və problemlərini əhatə edən normativ-hüquqi aktların qəbul edilməsi yolu ilə samballı hüquqi bazanı formalaşdırmaq və onun da əsasında səmərəli işləyən iqtisadiyyatın tənzimlənməsinin mükəmməl hüquqi mexanizminin hazırlanaraq praktiki tətbiqidir.

2. Milli iqtisadiyyatın tənzimlənməsinin səmərəli işləyən hüquqi mexanizminin formalaşdırılması və ardıcıl olaraq təkmilləşdirilməsi, mahiyyət etibarı ilə, dövlətin prioritet əhəmiyyətli funksiyasıyalarından biri sayılır və iqtisadiyyatın möhkəm təməllər əsasında davamlı və dinamik inkişaf etdirməsi üzrə onun vəzifələrinin uğurla həll etməsinin başlıca amili hesab olunur.

3. Hüquqyaratma sahəsində son illərdə dövlətin apardığı geniş və səmərəli fəaliyyətə baxmayaraq Azərbaycanda milli iqtisadiyyatın tənzimlənməsinin hüquqi bazasının tam formalaşdırılması başa çatmamışdır. Bu səbəbdən də hazırda milli iqtisadiyyatın inkişafının səmərəli tənzimlənməsinin hüquqi aspektlərinın tənzimləmə prosesində milli maraqlara uyğun şəkildə nəzərə alınması sahəsində müəyyən çətinliklər mövcuddur.

4. Qanunvericilik sistemində hüquqi boşluqların hələ də qalması iqtisadiyyatın hüquqi tənzimləmə prosesində açıq şəklində özünü büruzə verir. Bəzi hallarda isə illərcə qüvvədə olan qanunlar müasir tələbata cavab vermirlər. Buna misal plaraq, milli iqtisadiyyatın tənzimlənməsində olduqca önəmli rolu olan «Sahibkarlıq fəaliyyəti haqqında» Az.Resp. Qanunun (1992) artıq öz vəzifələrinin

öhdəsindən tam gələ bilmir və buna səbəb keçən 30 il ərzində bazar iqtisadiyyatının və müvafiq olaraq sahibkarlıq münasibətlərinin çox sürətlə inkişaf etməsidir.

5. Bazar münasibətləri şəraitində dövlətin yaratdığı yeni hüquqi əsas hazırkı iqtisadi mühitdə bazarda rəqabət mexanizminin səmərəli fəaliyyətinə şərait yaratmalıdır ki, bu da nəticə etibarı ilə milli iqtisadiyyatın dinamik inkişafına əlverişli imkanlar açmalıdır. Bu baxımdan da ölkədə sahibkarlıq mühitinin dünya standartlarına müvafiq tənzimlənməsi məqsədilə bu sahədə hüquqi əsasın daha da təkmilləşdirilməsinə və ya prinsipial yeni mətndə geniş əhatəli bir məcəllə qəbul edilməsinə zərurət vardır.

6. Milli iqtisadiyyatı maksimum dərəcədə səmərəli tənzimlənmək üçün Azərbaycanda hüquqi bazanın inkişaf etdirilməsi eyni vaxtda bir çox amillər və tələbatlar nəzərə alınmaqla aparılmalıdır. Buraya ilk növbədə qəbul edilən qanunların və digər normati-hüquqi sənədlərin geniş ictimayyəti, ilk növbədə iqtisadi subyektləri cəlb etməklə qəbul edilməsi, qanunlar üzrə dövlət ekspertizasının sürətli və professional şəkildə aparılması, onların icrasının nəticələrinin müzakirəsinin şəffaf olmaqla xalqın iştirakı ilə aparılması, normativ-hüquqi aktların icrasının hesabatının mütəmadi şəkildə aparılması.

7. Yeni qanunların qəbulu zamanı köhnə icra mexanizminin ayrıca hazırlanması təcrübəsindən imtina edərək müasir qabaqcıl dünya təcrübəsi, yəni iqtisadi qanunların artıq maksimum dərəcədə detallaşdırılmış şəkildə işlənməsi praktikası tətbiq olunmalıdır ki, bu da müvafiq dövlət orqanlarının baxtına və enerjisinə böyk həcmdə qənaətə imkan vermiş olacaqdır.

8. Milli iqtisadiyyatının tənzimlənməsinin hüquqi bazası daimi olaraq dövlət tərəfindən həm kəmiyyət, həm də keyfiyyət dəyişikliklərinə uğramalıdır. Kəmiyyət dəyişiklikləri ilə əlaqədar söyləmək lazımdır ki, qabaqcıl dünya ölkələrinin hüquqyaratma sahəsindəki təcrübəsinin göstərdiyi kimi, dövlətin hüquqi tənzimləmə fəaliyyətinin lazımi səviyyədə həyata keçirilməsi üçün ən azı 800-dən artıq iqtisadi qanunun qəbulu və işləməsi zəruridir. Keyfiyyət dəyişiklikləri isə qanunlara daimi əsasda əlavələr, düzəlişlər və dəyişikliklərin aparılmasını ifadə

edir və qanunların səmərəli işləməsi üçün bu olduqca vacib şərtdir.

9. Hazırda Azərbaycanda iqtisadi sferada 450 dən artıq qanun qüvvədədir və hətta onlardan da az bir qismi hələ də tam qüvvə ilə işləmir. Bu o deməkdir ki, milli iqtisadiyyatın dayanaqlı və davamlı inkişafının təmin rdilməsi istiqamətində milli qanunvericilik sistemin formalaşdırılması fəal və ardıcıl şəkildə davam etdirilməlidir. Yalnız belə olan halda milli iqtisadiyyatın inkişafının səmərəli tənzimlənməsi öz müsbət nəticələrini verə bilər.

10. Azərbaycanda inhisarşılıq və rəqabət sferasında yaranan ciddi problemləri nəzərə alaraq İqtisadiyyat Nazirliyi nəzdində struktur bölməsi kimi 20 ildən artıq fəaliyət göstərən Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin daha geniş statusa, səlahiyyətlərə və hüquqlara malik səmərəli fəaliyyət göstərən mərkəsi dövlət orqanı (yaxşı olar ki nazirliklə) ilə əvəz olunması zəruridir.

11. Ölkədə rəqabətin səmərəli tənzimlənməsinin təmin edilməsi məqsədilə, bu sahədə yüksək nailiyyətlərin əldə edilməsi istiqamətində dövlətin səmərəli tənzimləmə fəaliyyətinin təmin edilməsi üçün yeni mətndə daha əhatəli və geniş təsir qüvvəsinə malik «Rəqabət Məcəlləsinin» təcili olaraq qəbul edilməsi vacibdir.

12. Bazar münasibətlərinin yenicə yarandığı dövrdə dövlətin yaratdığı yeni hüquqi əsas hazırda yeni iqtisadi mühitdə ölkədə sahibkarlıq mühitinin dünya standartlarına müvafiq tənzimlənməsi məqsədilə bu sahədə hüquqi əsasın daha da təkmilləşdirilməsinə və ya yeni mətndə prinsipial geniş əhatəli bir normativ-hüquqi akta və. Yaxşı olar ki, məcəlləyə zərurət vardır.

13. Müasir iqtisadiyyatda birjaların rolunun yüksək olduğunu nəzərə almaqla qabaqcıl dünya təcrübəsini də nəzərə almaqla milli iqtisadiyyatın inkişafında birjaların rolunun yüksəldilməsi üçün xüsusi təyinatlı «Birja fəaliyyəti haqqında» Qanununun qəbulu milli maraqlar baxımından zəruridir.

14. Regional iqtisadiyyatın səmərəli tənzimlənməsi üçün xüsusi qanun və ya məcəllə qəbul edilməli və bununla da regional inkişafın hüquqi tənzimləmə məsələlərinə problemlərinin həllini proqressiv bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 1995
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı. 2000
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı. 2000
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı. 2011
5. «Sahibkarlıq fəaliyyəti haqqında» Az.Resp. Qanunu. Bakı. 1992
6. «Antiinflyasiya fəaliyyəti haqqında» Az.Resp. Qanunu. Bakı. 1993
7. «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Azərbaycan Respublikasının 10 dekabr 2004-cü il tarixli Qanunu.
8. «Banklar haqqında» Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli Qanunu.
9. «Kredit ittifaqları haqqında» Azərbaycan Respublikasının 2 may 2000-ci il tarixli Qanunu.
10. «Bank olmayan kredit təşkilatları haqqında» Azərbaycan Respublikasının 25 dekabr 2009-cu il tarixli Qanunu.
11. «İnvestisiya fəaliyyəti haqqında» Az.Resp. Qanunu. Bakı. 1995
12. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 №-li Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»
13. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin 3 fevral 2016-cı il tarixli, 760 nömrəli Fərmanı.
14. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»
15. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»

16. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyası.
17. «Azərbaycanın statistik göstəricilər-2019» Az.Resp. DSK. 2019. 808 s.
18. «Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası». prof. Ə.Muradovun redaktorluğu altında *(monoqrafiya).* ADİU, 2019. 340 s.
19. Allahverdiyev HB.., Qafarov K.S, Əhmədov Ə.M., «Milli iqtisadiyyatın dövlət tənzimlənməsi», Bakı 2007. 560 s.
20. Allahverdiyev H.B. İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları. Bakı. 2009. 341 s.
21. Cavadov C.C., Ağayev A.A., Qurbanov Q.Q. «İqtisadiyyatın dövlət tənzimlənməsi». Bakı. 2019. 444 s.
22. Əhmədov M.A., Hüseyn A.C. «İqtisadiyyatın tənzimlənməsinin əsasları» Bakı 2011. 120 s.
23. Əhmədov M.A., Hüseyn A.C. «Dövlətin iqtisadi siyasəti». Bakı. 2011. 147 s.
24. Əliyev Ə.Ə., «Azərbaycanda vergilərin iqtisadi artıma təsiri». Azərbaycanın vergi jurnalı, 2018, №2, səh.108-120.
25. Hüseynov T.H. Azərbaycan milli iqtisadi inkişaf modeli: nəzəriyyə və prtaktika. Bakı. 2015. 460 s.
26. İsayev S.Z. İqtisadi hüquq. Bakı. 2013. 357 s.
27. İsayev S.Z. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı. 2011. 187 s.
28. İsayev A.D. Azərbaycan Respublikası qanunları əsasında bankların yaradılmasının nəzəri və praktiki aspektləri. «Qanun» curnalı, № 02, 2006., s. 41-46.
29. Məmmədov M.M. «Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri» (monoqrafiya), Bakı. 2018. 468 s.
30. Vəiyev D.Ə. və d. Vergi hüququ. Bakı. 2003. 482 s.
31. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanaqlı və davamlı inkişafın təntənəsi. Bakı. 2011. 562 s.
32. «Milli iqtisadi inkişafın Azərbaycan modeli» mövzusunda konfransın materialları I, II, III hissə , Bakı 2007

**Rus dilində**

1. Афанасьев К.С., Казеннов А.С. Государственное регулирование экономики как средство экономической политики: моногр. М. 2017. 148 с.
2. Белы В. С., Берсункаев Г.Э., Виниченко С. И. Предпринимательское право России. М, 2011, 656 с.
3. Вайпан В.А., Егоровой М.А. Право и экономическое развитие: проблемы государственного регулирования экономики. М. 2017. 308 с.
4. Кушлин В.И. Государственное регулирование экономики. М., 2013. 496 с.
5. Капканщиков С.Г. Государственное регулирование экономики; М., 2018. 528 с.
6. Мельников В.В. Государственное регулирование национальной экономики. Учебное пособие. М., 2017. 352 с.
7. Шумпетер Й.А. (1981) «Теория Экономического Развития”, М. 401 с.

**İngilis dilində**

1. Anthony İ. Ogus. Regulation - Legal Form and Economic Theory. Oxford. Clarendon Press. 2009. 159 p.
2. Kruqman P. «How Did Economists Get It So Wrong?» // The New York Times. 2009. 250 p.
3. Mackaay E. History of law and economics. University of Montreal. 2012. 279p.
4. Ronald Case. The Firm, the Market and the Law. Chicago. The University of Chicago Press. Wolfgang Weigel Law and economics in Austria. University of Vienna. 2014. 230 p.

**İnternet resursları**

1. http://www.justice.gov.az - Az.Resp. Ədliyyə Nazirliyinin rəsmi saytı
2. http://www.elibrary.az - Az.Resp. Prezidenti kitabxanasının rəsmi saytı
3. http://www.stat.gov.az – Az.Resp. Dövlət Statistika Komitəsinin rəsmi saytı
4. http://economy.gov.az - Az.Resp. İqtisadiyyat Nazirliyinin rəsmi saytı

## Cədvəllərin siyahısı

Cədvəl 1: Sahibkarlı fəaliyyətinin dövlət tənzimlənməsi üzrə tədbirlər kompleksi..32

Cədvəl 2: Azərbaycanın dövlət büdcəsi üzrə əsas gəlir mənbələri...........................37

Cədvəl 3: Dövlət büdcəsinin gəlirləri, xərcləri və kəsirinin ÜDM-yə nisbəti (%-lə) ......................................................................................................................................40

Cədvəl 4: 2020-ci ilə Azərbaycanın dövlət büdcəsi, mlrd.manat ...........................41

Cədvəl 5: Azərbaycanda sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri ......................................................................................................................................60

Cədvəl 6: Azərbaycan iqtisadiyyatında sahibkarlıq subyektlərinin payı, faizlə......61

Cədvəl 7: Əsas kapitala yönəldilmiş investisiyalar.................................................63

## Qrafiklərin siyahısı

Qrafik 1: Milli iqtisadiyyata investisiya qoyuluşları və qeyri-neft sektorunun məhsulunun artım dinamikası (2004-2018-ci llər).................................................64

## Sxemlərin siyahısı

Sxem 1: İqtisadiyyatın dövlət tənzimlənməsini şərtləndirən amillər.......................17